

100 ilin qəzeti

# ŞƏRQ QAPISI

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Sayı: 13 (24.448)

5 aprel 2025-ci il, şənbə

www.serqqapisi.az

Təsisçi: Naxçıvan Muxtar Respublikasının Ali Məclisi


# Azərbaycan-Almaniya əlaqələrində yeni strateji perspektivlər



*Azərbaycanla Almaniya arasında 1992-ci ilin fevralın 20-də qurulan diplomatik münasibətlər zəminində sonrakı dövrdə mühüm irəliləyişlər əldə olunub, siyasi, iqtisadi və elmi-texniki sahələrə dair müqavilələr imzalanıb, müdafiə, siyasi təhlükəsizlik, terrorizmə qarşı mübarizəyə dair uğurlu əməkdaşlıqlara imza atılıb. Son illərdə isə Azərbaycan ticarət dövriyyəsi Avropanın enerji təhlükəsizliyi baxımından Almaniyanın əlaqələrin inkişafına önəm verdiyi vacib siyasi-iqtisadi tərəfdaşlarından birinə çevrilib. Prezident İlham Əliyevin Almaniyaya işgüzar səfərləri, beynəlxalq konfranslar çərçivəsində baş tutan dialoqlar iki ölkə arasında münasibətlərin daha da gücləndirilməsi və əməkdaşlığın genişləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edib. Almaniya Federativ Respublikasının Prezidenti Frank-Valter Ştaynmayerin ölkəmizə səfəri, səfər çərçivəsində keçirilən təkbətək, geniştərkibli görüşlər, ardınca liderlərin mətbuata bəyanatları da münasibətlərin dinamik inkişafından, yeni strateji perspektivlərindən xəbər verdi.*

Səhifə ➡ 3

## Naxçıvan Dövlət Universitetinin tabeliyinə 3 qurum verilib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 4 aprel 2025-ci ildə Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyindəki elmi müəssisələrin fəaliyyətinin optimallaşdırılması və səmərəliliyinin artırılması ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.

Sərəncama əsasən Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndi rəhbər tutularaq, nazirliyin tabeliyindəki Naxçıvan Təbii Ehtiyatlar İnstitutu, Naxçıvan Bioresurslar İnstitutu və Batabat Astrofizika Rəsədxanası Naxçıvan Dövlət Universitetinin tabeliyinə verilib.

## "Qafqazın Xirosiması"ndan "Qafqazın cənnəti"nə doğru: bax, biz belə şəhər qururuq



Səhifə ➡ 4

## Konstitusion vəzifələrimiz və vətəndaşlıq borcumuz




Səhifə ➡ 6-7

## Azad Kəlbəcər dirçəlir və yenidən qurulur



Səhifə ➡ 8

## Milli musiqimizin dərin təəssübkeşi, qədirşünas alim, pedaqoq



Səhifə ➡ 11

## Naxçıvan şəhərinə xüsusi yetişdirilmiş Xan çinar ağacları gətirilib



Səhifə ➡ 12

# Xalqa həsr olunan ömür

## Ulu Öndərin milli mədəniyyətə göstərdiyi qayğı hər birimiz üçün böyük məktəbdir

Ümummilli Lider Heydər Əliyev mədəniyyəti xalqın böyük sərvəti hesab edirdi. Elə ona görə də mədəni-mənəvi dəyərlərin qorunması, təbliği və yeni estetik düşüncəyə məxsus əsərlərin yaradılması üçün mümkün olan hər şeyi edirdi. Mədəniyyətimizin elə bir sahəsi yoxdur ki, Ulu Öndərin qayğısından bəhrələnməsin. Musiqimiz də, teatrımız da, kino sənətimiz də, heykəltəraşlıq və rəssamlığımız da, xalça sənətimiz də bugünkü inkişafında görkəmli dövlət xadiminin dəyərli ideyalarından bəhrələnib. Dahi şəxsiyyət Heydər Əliyev həm də mədəniyyətimizi yaradan, onu inkişaf etdirən insanların əməyini yüksək qiymətləndirir, onların daim qayğısını çəkirdi. Azərbaycanın müqtədir sənətkarları sovet dövründə məhz Ulu Öndərin qayğısı nəticəsində "Sosialist Əməyi Qəhrəmanı" kimi SSRİ-nin ən yüksək fəxri adını almışlar. Xalqımızın böyük oğlu bəstəkarların, kinematoqrafçıların, teatr xadimlərinin, rəssamların qurultaylarında, konfranslarında iştirak edir, dərinməzmunlu nitqi iştirakçıların alqışlarıyla qarşılanırdı. Onun hər çıxışı mədəniyyətin bir sahəsinin gələcək inkişaf proqramına çevrilirdi. Hansı sahədən danışırdısa, elə hiss edirdin ki, bu sahənin mütəxəssisi, bilicisidir. Dahi şəxsiyyət özü də incəsənət meyilli şəxsiyyət idi. Elə gəncliyində də incəsənətə gəlmək, memar olmaq istəyirdi. Amma zaman Ulu Öndəri siyasət memarına çevirdi. Çünki bu xalqın belə bir siyasət xadiminə çox böyük ehtiyacı var idi.



Azərbaycan müstəqillik qazandıqdan sonra bir müddət mədəniyyətimiz böyük çətinliklər qarşısında qalsa da, dahi şəxsiyyət Heydər Əliyevin hakimiyyətə yenidən qayıdışı sanki Azərbaycan mədəniyyətinin də tərəqqisinə yeni təkan verdi. Sosial problemlər ucbatından xarici ölkələrə üz tutan sənət adamları Vətənə döndülər, onlara xüsusi qayğı göstərilməyə başlandı. Bağlanmış teatrlar, kitabxanalar, muzeylər öz qapılarını yenidən insanların üzünə açdı. Azərbaycanda beynəlxalq səviyyəli kinofestivallar keçirilir, filmlərimiz beynəlxalq festivallarda nümayiş etdirilməyə başlandı. Teatrlarımız öz fəaliyyətlərini genişləndirdi. Ümummilli Lider teatrı çox sevirdi. O, həmişə tamaşadan sonra yaradıcı kollektivlə görüşür, onlara öz tövsiyə və tapşırıqlarını verirdi. Ulu Öndər deyirdi: ***"Şübhəsiz ki, insanlara şeir qədər, ədəbiyyat qədər güclü təsir edən, yəni insanların mənəviyyatına, əxlaqına, tərbiyəsinə, fikirlərinin formalaşmasına bu qədər güclü təsir göstərən başqa bir vasitə yoxdur".***

Ümummilli Liderimiz öyrədirdi ki, mədəniyyət özündə əməkdaşlıq, müxtəlif sivilizasiyalara qarşılıqlı hörmət, mehriban qonşuluq, müxtəlif xalqlara ehtiram kimi prinsipləri ehtiva edir. ***"Xalq bir çox xüsusiyyəti ilə tanınır, sayılır və dünya xalqları içərisində fərqlənir. Bu xüsusiyyətlərdən ən böyüyü mədəniyyətdir"***, – deyən Ümummilli Liderin ölkəyə hər iki rəhbərliyi dövründə mədəniyyətimiz böyük diqqət və qayğı ilə əhatə olunmuşdu. "Kitabi-Dədə Qorqud" eposu, Xaqani, Nizami dühası, Füzuli dünyası, Əcəmi Naxçıvani sənəti, Gəmiqaya rəsmləri, Qobustan, İçərişəhər, Atəşgah, Əshabi-kəhf abidə kompleksləri, Nəsimi, Vaqif, Cavid, Mirzə Cəlil, Müşfiq, Səməd Vurğun, Aşıq Ələsgər, Bəxtiyar Vahabzadə, Məmməd Araz ədəbi-bədii düşüncəsi, Bəhruz Kəngərli, Əzim Əzimzadə, Səttar Bəhlulzadə, Mikayıl Abdullayev, Tahir Salahov, Toğrul Nərimanbəyovun rəng düzümü, Üzeyir Hacıbəyli, Qara Qarayev, Fikrət Əmirov, Niyazi, Rəşid Behbudov, Tofiq Quliyev, Müslüm Maqomayev, Arif Məlikovun musiqi dünyası, bir sözlə, bütün bu dəyərli xəzinə Ulu Öndərimiz tərəfindən yüksək qiymətləndirilmişdir. Onun sərəncamları ilə bəstəkar və musiqişünaslara Prezident təqaüdü verilmiş, "Şöhrət" və "İstiqlal" ordenləri ilə təltif edilmişlər.

Dahi rəhbərin mədəniyyətə, incəsənətə belə qayğı və diqqəti, hamilik etməsi Vətənə, xalqa bağlılığında idi. Qeyd etmək lazımdır ki, Azərbaycanda görkəmli şəxsiyyətlərin yubileylərinin keçirilməsi ənənəsi də bu dahi insanın adı ilə bağlıdır. Bir çox böyük şəxsiyyətlərimizin yubileyləri Ulu Öndərin hakimiyyəti illərində yüksək səviyyədə qeyd olunmuşdur. Müstəqillik illərində "Dədə Qorqud" eposunun 1300 illiyinin dünya səviyyəsində qeyd olunması Ulu Öndərin xidmətidir. Böyük şəxsiyyətlərin Bakıda və respublikamızın başqa şəhərlərində əzəmətli heykəl və abidələrinin ucaldılması dahi rəhbərin həm də Azərbaycan mədəniyyətinə sonsuz məhəbbətinin ifadəsidir.

Bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən Ümummilli Liderimiz Heydər Əliyevin mədəniyyət siyasəti uğurla davam etdirilir. Yeni mədəniyyət müəssisələri, konsert salonları inşa olunur, teatrlarımız, muzeylərimiz, kitabxanalarımız təmir olunur, sənət adamlarına böyük qayğı göstərilir. Ulu Öndərin bu sahədə yaratdığı ənənələr davam etdirilir, mədəniyyət sahəsində böyük layihələr həyata keçirilir.

Dövlət başçımız cənab İlham Əliyevin imzaladığı bir sıra fərman və sərəncamlar respublikamızda bu sahələrin müasir dünya standartlarına uyğunlaşmasında böyük rol oynamışdır. ***"Qloballaşan dünyada Azərbaycan Respublikası və azərbaycanlılar özünün maddi-mənəvi və intellektual potensialına uyğun layiqli yer tutacaqdır"***, – deyən Prezident xalqın milli xüsusiyyətlərinin və milli dəyərlərinin dünyada yayılmasında ədəbiyyatın və mədəniyyətin böyük rolunu xüsusi qeyd etmişdir. Son bir neçə il ərzində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qayğısı sayəsində elm, təhsil və mədəniyyətin ayrı-ayrı problemlərinə həsr olunmuş çoxsaylı Dövlət Proqramları hazırlanıb təsdiq olunmuşdur.

Mədəniyyət siyasətinin reallaşması işində bu gün Ulu Öndərin adını şərəflə daşıyan Heydər Əliyev Fondunun böyük xidmətləri vardır. Milli-mənəvi dəyərlərimizə qayğı, onların qorunması və təbliğində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyevanın xidmətləri əvəzsizdir. Fondun muğam sənətimizin inkişafına, Azərbaycan mədəniyyətinin dünyada tanınmasına, eləcə də işğaldan azad edilmiş ərazilərdə mədəniyyət ocaqlarının, tarixi abidələrin bərpası, milli-mənəvi dəyərlərimizin təbliği istiqamətində apardığı davamlı tədbirlər olduqca əhəmiyyətlidir.

Naxçıvan hər zaman mədəniyyət, sənət, ədəbiyyat beşiyi olub, dünya mədəniyyətinə onlarla qüdrətli sənətkarlar bəxş etmişdir. Doğma yurdu Naxçıvanın mədəniyyəti, incəsənəti, musiqisi də Ulu Öndərin daim diqqət mərkəzində olmuşdur. ***"Əsrarəngiz gözəlliyə malik olan, dünya elminə, ədəbiyyatına, diplomatiyasına dahilər bəxş etmiş Naxçıvan həm də görkəmli musiqiçilər diyarıdır"***, – deyən Ümummilli Lider Heydər Əliyev Naxçıvan musiqi mədəniyyətinə böyük qayğı göstərmiş, onun inkişafı üçün əlindən gələni əsirgəməmişdir.

Dahi bəstəkar Üzeyir Hacıbəylinin təşəbbüsü ilə ilk musiqi məktəbinin açılması, Tofiq Quliyevin rəhbərlik etdiyi caz orkestrinin Naxçıvanda fəaliyyət göstərməsi, Naxçıvan Dövlət Konsert Briqadasının yaradılması, Niyazinin, Bülbülün, Rəşid Behbudovun və bir çox musiqiçilərin Naxçıvan musiqiçiləri ilə yaradıcılıq əlaqələri bu qədim diyarda ifaçılıq və bəstəkarlıq sənətinin yüksəlməsinə böyük təsir göstərməyə bilməzdi. Ulu Öndər Naxçıvanda ixtisaslı musiqiçi kadrların yetişməsi, istedadlı gənclərin musiqi təhsilinə cəlb olunması, milli musiqi alətlərinin, xalq mahnılarının yaşadılması, eləcə də klassik və müasir dünya bəstəkarlarının əsərlərinin öyrədilməsi ideyası ilə 1975-ci ildə Naxçıvanda yeni təhsil ocağı Orta İxtisas Musiqi məktəbinin yaradılmasını məqsədəuyğun hesab etmişdir. Bu tədris müəssisəsinin yaradılması ilə Naxçıvanın mədəni həyatında yeni bir mərhələnin başlanğıcı qoyuldu.

1999-cu ildə Naxçıvan Muxtar Respublikasının 75 illik yubileyində iştirak edən Ümummilli Lider yekun konsertdən sonra musiqiçilərin çıxışları haqqında demişdi: ***"Sevinirəm ki, Naxçıvanda, bu qədim diyarda belə gənc incəsənət ustaları yetişir. Musiqiçilər, müğənnilər tərəfindən həm milli musiqimiz, həm də Avropa musiqisinin ifası, kamera orkestri, xor kopellasının çıxışları çox xoş təsir bağışladı. Burada gördüklərimizin hamısı onu göstərir ki, Naxçıvan Azərbaycanın ayrılmaz bir hissəsi olaraq demokratiya, dünyəvi dövlət quruculuğu, hüquq, haqq yolu ilə gedir".*** Unudulmaz rəhbərin dediyi bu sözlər Naxçıvan musiqiçilərinin çıxışlarına verdiyi yüksək qiymət, təməli Heydər Əliyev tərəfindən qoyulan, musiqi mədəniyyətimizin inkişafına aparan yolların doğruluğuna, seçilən xəttin ardıcıllığına işarə idi.

Bu gün Ulu Öndər Heydər Əliyevin əziz xatirəsi təkcə ürəklərdə deyil, sənət əsərlərində, musiqidə əbədiləşərək tarixin yaddaşına köçüb. Onun ömür yolu hələ neçə-neçə sənət əsərlərinə qanad verəcək, neçə-neçə musiqi əsərində Heydər Əliyevin şəxsiyyəti canlanacaq. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin fenomenal adı, siyasəti və əməlləri tarix bizdən uzaqlaşdıqca daha da möhtəşəm təsir bağışlayır. Prezident cənab İlham Əliyevin dediyi kimi: ***"Heydər Əliyevin siyasəti yaşamalıdır. Bu, yeganə siyasətdir ki, Azərbaycanı daha da gücləndirəcək, Azərbaycan xalqının həyat səviyyəsinin yaxşılaşmasına xidmət edəcəkdir".***

Ömrünü xalqa həsr edən dahi şəxsiyyətin Azərbaycan mədəniyyətinə göstərdiyi qayğı və diqqət heç vaxt yaddan çıxan deyil. Ulu Öndərin milli mədəniyyətə, mənəviyyata göstərdiyi münasibət və mövqe hər birimiz üçün böyük məktəbdir.

**Məhəbbət BABAYEVA**
***Naxçıvan Musiqi Kollecinin direktoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi***

# Azərbaycan-Almaniya əlaqələrində yeni strateji perspektivlər

**Prezident İlham ƏLİYEV:**

**"Mən tam əminəm ki, bu səfər bizim əlaqələrimizə yeni müsbət təkan verəcəkdir."**

*(əvvəli 1-ci səhifədə)*

Liderlərin mətbuata bəyanatlarında diqqətçəkən məqamlar sırasında iqtisadi, enerji, xüsusilə də bərpa olunan enerji sahələri üzrə əməkdaşlığın dərinləşdirilməsinin vacibliyi ön plana çıxdı. Məlum olduğu üzrə Azərbaycanın təşəbbüsçüsü olduğu, bilavasitə iştirakı ilə reallaşan "Bakı-Tbilisi-Ceyhan", "Cənub Qaz Dəhlizi", "Orta Dəhliz" kimi nəhəng neft-qaz, nəqliyyat layihələri ona Avropa İttifaqı ölkələri, o cümlədən də Almaniya üçün etibarlı tərəfdaş imici qazandırıb. Tərəfdaşlığın gücləndirilməsi nöqteyi-nəzərindən onu qeyd etmək yerinə düşər ki, 2011-ci il mayın 5-də Ticarət və investisiyalar üzrə Almaniya-Azərbaycan yüksəksəviyyəli İşçi Qrup, bir il sonra isə Bakıda Alman-Azərbaycan Xarici Ticarət Palatası təsis edilib, ötən illərdə tərəflərin iclasları keçirilib, ticari məsləhətləşmələr aparılıb. İqtisadi əlaqələrin dinamik inkişafı, əməkdaşlıqlara dair yeni perspektivlərin açılması ticarət dövriyyəsinin artımına müsbət təsirini göstərib. Məhz artan dinamikanın nəticəsidir ki, bu ilin yanvar-fevral aylarında Azərbaycanla Almaniya arasında ticarət dövriyyəsinin dəyəri 485,4 milyon ABŞ dolları, o cümlədən bu ölkəyə ixracın dəyəri 285 milyon ABŞ dolları, bu ölkədən idxalın dəyəri isə 200,4 milyon ABŞ dolları olub. Son 1 ildə ticarət dövriyyəsi 2,8 dəfə, ixrac 5 dəfə, idxal isə 1,7 dəfə artıb. Prezident İlham Əliyevin mətbuata bəyanatında da ilk olaraq məhz iqtisadi əlaqələrə dair nikbinlik, ticarət dövriyyəsinin artımından məmnunluq diqqəti çəkdi: ***"Mən tam əminəm ki, bu səfər bizim əlaqələrimizə yeni müsbət təkan verəcəkdir. İqtisadi sahədə əldə edilmiş nəticələr bizi təbii olaraq ruhlandırır. Çünki bu ilin yanvar-fevral aylarında bizim ticarət dövriyyəmiz, təxminən, üç dəfə artıb".***

Almaniya lideri də öz bəyanatında Azərbaycanın inkişaf edərək mühüm məkana çevrildiyini, buradan çox vacib ticarət yollarının keçdiyini və bunun da dünyanın birləşməsinə səbəb ola biləcəyini vurğuladı. Almaniyanın yalnız Mərkəzi Asiya ilə deyil, həm də Uzaq Şərq, Cənub-Qərbi Asiya və Çinlə ticarət əlaqələrində Azərbaycanın rolu olduğunu qeyd edən Frank-Valter Ştaynmayer bu baxımdan Orta Dəhlizin əhəmiyyətinə xüsusi toxundu: "Ölkənizdən keçən yolların, Orta Dəhlizin rolu alman iqtisadiyyatı üçün də vacibdir, yaxşı perspektivdir və bu, daha maraqlı bir perspektivə çevriləcək".



## *Azərbaycanla Almaniyanın maraqlarını kəsişdirən mühüm sahə*

Azərbaycanla Almaniya arasında əməkdaşlığın mühüm perspektivləri sırasında, şübhəsiz ki, hər iki ölkənin böyük önəm verdiyi bərpa olunan enerji mənbələrindən istifadənin genişləndirilməsi məsələsi öndə gəlir. Federativ Respublikanın bu sahədəki zəngin təcrübəsi və Azərbaycanın irəli sürdüyü mühüm təşəbbüslər tərəflərin yaxınlaşmasını şərtləndirən əsas amildir. Bu baxımdan Prezident İlham Əliyevin Vətən müharibəsindən sonra, daha dəqiq desək, 2021-ci il fevralın 2-də imzaladığı Sərəncamla qəbul edilən "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" mühüm konsepsiya, əsl yol xəritəsi funksiyası daşıyır. Ölkəmizin müasir inkişaf parametrlərini müəyyən edən dövlət sənədində beş milli prioritetdən biri kimi təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi prioritetinin müasir çağırışlara dair qarşıya qoyduğu hədəflər hər iki ölkənin maraqlarını kəsişdirir. Bundan başqa, "Azərbaycan Respublikasının 2022-2026-cı illər üçün sosial-iqtisadi inkişaf strategiyası"nda elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrinin payının 2026-cı ilədək 24 faiz, 2030-cu ilədək isə 30 faizə çatdırılması nəzərdə tutulur ki, bu da tərəflərin mövqeyinə uyğundur. Bu sahədə həyata keçirilən tədbirlərin tərkib hissəsi olaraq Qarabağ, Şərqi Zəngəzur və Naxçıvanın "yaşıl enerji zonası" elan edilməsi və buna müvafiq görüləcək işlərdə Almaniya şirkətlərinin təcrübəsindən faydalanmaq gündəmdə olan əsas məsələlərdəndir.

Bildiyimiz kimi, 2022-ci il dekabrın 17-də Buxarestdə "Azərbaycan, Gürcüstan, Macarıstan və Rumıniya arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" imzalanıb. Bu saziş Avropanı "yaşıl enerji" ilə təmin edən əsas kanal kimi Qara dənizin dibi ilə 1100 kilometr uzunluğunda sualtı kabelin çəkilməsini nəzərdə tutur ki, bununla da Azərbaycan Avropaya "yaşıl enerji" körpüsü salmağı hədəfləyib. Sözügedən bu nəhəng layihə də Azərbaycan-Almaniya əməkdaşlığının gücləndirilməsi üçün mühüm perspektivlər vəd edir. Digər tərəfdən nəzərə alsaq ki, Almaniya Avropanın ən güclü sənaye dövlətlərindən biridir, o zaman qeyri-neft sənayesinin inkişafını qarşıya mühüm vəzifə qoyan Azərbaycan Almaniya üçün regionda etibarlı tərəfdaş rolu oynaya bilər. Bakı görüşünün ardından mətbuata bəyanatında da Prezident İlham Əliyevin ikitərəfli münasibətlərə dair toxunduğu mühüm məsələlərdən biri məhz bərpa olunan enerji mənbələri ilə bağlı oldu. Sitat: ***"Biz hesab edirik ki, gələcək illərdə öz ticarət dövriyyəmizin şaxələndirilməsi ilə bağlı daha fəal addımlar atmalıyıq, xüsusilə bərpa olunan enerji sahəsində – harada ki, Almaniya şirkətlərinin çox böyük təcrübəsi var, Azərbaycanın da çox böyük proqramı, planları var. Biz xarici investorların sərmayəsi hesabına 2030-cu ilə qədər bərpa olunan enerji növlərinin istehsal gücünü 6 giqavata çatdırmaq fikrindəyik və bu, tam realdır, bunun bir hissəsi Avropaya ixrac ediləcəkdir".***

## *Ermənistan sülh istəyirsə, Azərbaycanın iki legitim şərtini qəbul etməlidir*

Aprelin 2-də Azərbaycan və Almaniya liderləri mətbuata bəyanatlardan sonra jurnalistlərin suallarını cavablandırdılar. Hər iki ölkənin media nümayəndələrinin ünvanladığı suallar mahiyyət etibarilə Cənubi Qafqazda sabitliyin təmini, Azərbaycan-Ermənistan münasibətlərinin nizama salınması, sülh müqaviləsinin imzalanmasını əhatə etdi.

Berlində fəaliyyət göstərən DPA informasiya agentliyindən Ullrix Ştaynkolun sülh müqaviləsinin imzalanmasına dair suala cavab olaraq dövlət başçımız ölkəmizin sülh danışıqlarının başlanmasında ilk təşəbbüskar tərəf olduğunu vurğuladı, münasibətlərin nizamlanması prinsipi üzrə Azərbaycanın dəyişməz mövqeyini qəti şəkildə ortaya qoydu. Prezident İlham Əliyev münaqişənin həllini tapdığı üçün ATƏT-in Minsk qrupunun mandatının uzadılmasının gərəksiz olduğunu, qurumun ləğv edilməsini və Azərbaycanın hüquqi, tarixi ərazisinin Ermənistanla birləşməsi haqqında müddəanın yer aldığı Ermənistan konstitusiyasının dəyişdirilməsini sülh üçün iki əsas şərt kimi açıqladı. Sitat: ***"Bu iki şərt təmin ediləndən sonra sülh müqaviləsini imzalamaq üçün heç bir maneə olmayacaq. Necə deyərlər, top Ermənistanın tərəfindədir. Əgər, doğrudan da, Ermənistan sülh müqaviləsini imzalamaq istəyirsə, Azərbaycanın bu iki legitim şərtini qəbul etməlidir".***

Bəli, qalib liderin qeyd etdiyi kimi, ölkəmizin mövqeyi haqlıdır, birmənalıdır. Əgər qarşı tərəf münaqişənin bitdiyini etiraf edir, Qarabağı Azərbaycan ərazisi olaraq tanıdığını deyirsə, o zaman bunu praktiki cəhətdən də göstərməli, barışığa hazır olduğunu sübuta yetirməlidir. Əks-təqdirdə, indiki vəziyyətdə bütün proseslər Ermənistanın əleyhinə işləyir və işğalçı ölkəni dünyaya "sülh göyərçini" kimi təqdim etməyə çalışmaqla da heç bir faydalı nəticə hasil olmayacaq. Son 5 ildə baş verən regional siyasi proseslər də belə deməyə əsas verir ki, Azərbaycanın irəli sürdüyü təşəbbüslərə, o cümlədən də sülh təşəbbüslərinə razı olmaq ən düzgün yoldur və məğlub tərəfin alternativ variantları qəbul edilməzdir, yolverilməzdir.

Almaniya lideri də, öz növbəsində, Cənubi Qafqazda sülhün təmininin vacibliyini qeyd edib, Azərbaycan tərəfinin irəli sürdüyü şərtlərə dair razılığın əldə olunacağına ümidvar olduğunu bildirdi. Sülh müqaviləsinin hazırlanmasını rəğbətlə qarşıladığını qeyd edən Frank-Valter Ştaynmayer Qarabağı Azərbaycan ərazisi olaraq tanıdığını vurğuladı: "Dediyim kimi, biz sülh müqaviləsinin hazırlanmasını çox alqışlayırıq və Qarabağ regionunun Azərbaycan ərazisi olduğunu bilirik, tanıyırıq. Bu bizim mövqeyimizdir və bu mövqe Azərbaycan tərəfindən də konkretləşdirilə bilər".

Ümumilikdə, onu deyə bilərik ki, Azərbaycan-Almaniya liderlərinin Bakı görüşündə ikitərəfli gündəliyə daxil olan geniş, əhatəli məsələlərə, eləcə də beynəlxalq məsələlərə dair fikir mübadiləsi aparıldı, səfərin çox faydalı, məhsuldar olacağına və ikitərəfli əlaqələrə yeni təkan verəcəyinə əminlik ifadə olundu. Dialoq zamanı Orta Dəhliz layihəsi və bu layihədə Azərbaycanın rolu, ölkələrimiz arasında enerji sahəsində əməkdaşlıq məsələləri müzakirə edildi, "yaşıl enerji" ilə bağlı əməkdaşlığa toxunuldu. COP29-un Azərbaycanda yüksək səviyyədə təşkil edildiyi və həmin tədbir zamanı iqlim gündəliyi ilə bağlı mühüm nəticələrin əldə olunduğu vurğulandı. Əksər məsələlərdə, layihələrdə iki ölkə maraqlarının kəsişməsi gələcəkdə əməkdaşlığın daha da gücləndiriləcəyinə əminlik yaratdı. Prezident İlham Əliyevin dediyi kimi: ***"Bir daha demək istəyirəm, əminəm ki, bu səfərin çox müsbət nəticələri olacaqdır. İkitərəfli münasibətlərimizin tarixində bu, Almaniya Prezidentinin Azərbaycana birinci rəsmi səfəridir. Əminəm ki, səfərin yekunları bizim ölkələrimizi bir-birinə daha yaxın edəcəkdir".***

**Nail ƏSGƏROV**

# "Qafqazın Xirosiması"ndan "Qafqazın cənnəti"nə doğru: bax, biz belə şəhər qururuq

Azərbaycan dövlətinin sarsılmaz siyasi iradəsi, yenilməz iqtisadi qüdrəti sayəsində tarixi Zəfərdən ötən 5 ilə yaxın müddətdə heç bir beynəlxalq maliyyə təşkilatından, heç bir ölkədən maddi yardım almadan əzəli torpaqlarımız Qarabağ, Şərqi Zəngəzur yenidən qurulur, dirçəldilir. Respublikamızın 2030-cu ilədək beş milli prioritetindən biri kimi müəyyən edilmiş işğaldan azad olunan ərazilərə Böyük Qayıdış proseslərinin uğurlu icrasının nəticəsidir ki, bir vaxtlar Vətən həsrəti ilə ürəkləri qovrulan soydaşlarımızın xoşbəxtlik sədaları artıq bir neçə ildir, öz yurdlarından, evlərindən gəlir, Zəngilanda, Füzulidə, Şuşada, Xocalıda, Xankəndidə bayram tonqalları qalanır, milli-mənəvi dəyərlərimiz, adət-ənənələrimiz bərpa olunur, yaşadılır. Erməni vandalizminin bariz ifadəsinə çevrilən, haqlı olaraq "Qafqazın Xirosiması" adlandırılan Ağdam da artıq ağ günlərinə qovuşur, "Qafqazın cənnəti"nə çevrilir. Hələ 4 il bundan öncə, daha dəqiq desək, 2021-ci il mayın 28-də Ağdam ictimaiyyətinin nümayəndələri ilə görüşündə ölkə başçımızın dediyi ***"Elə bir Ağdam quracağıq ki,bütün dünya üçün örnək olacaqdır"*** sözləri artıq öz real nəticələrini vermək üzrədir. Martın 27-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Ağdam rayonunun Sarıcalı kəndinin birinci mərhələsinin açılışında iştirakı zamanı reallaşdırılan quruculuq işlərinə dair verilən məlumatlar, dövlət başçısının sakinlərlə görüşündə səsləndirdiyi fikirlər də bunu bir daha təsdiqlədi.




***Ağdamda sənaye inkişaf edir, iqtisadi uğurlar əldə olunur***

Ölkə Prezidentinin rəhbərliyi ilə hazırlanan, icrası uğurla reallaşdırılan Böyük Qayıdış proqramı çoxşaxəliliyi ilə diqqəti çəkir, ilbəil əhatə dairəsini genişləndirməklə praktik, nəticəyönümlü əhəmiyyətini daha da artırır. Proqrama uyğun bütün işlər zəncirvari, paralel, mərhələli şəkildə reallaşdırılır, yəni soydaşlarımızın rahat yaşaması üçün mənzil-məişət şəraiti yaradılır, yol infrastrukturu qurulur, bununla yanaşı, gələcəyimiz olan uşaqların təhsil-tərbiyə məsələləri diqqətdə saxlanılır, eyni zamanda da köç edən insanların iş, istirahət imkanları təmin olunur. Bundan başqa, bölgələrə xas maddi sərvətlərin əvvəlki şöhrəti də özünə qaytarılır, tarixi ənənələr, milli-mənəvi dəyərlər bərpa edilir, turizm potensialı gücləndirilir, ən əsası isə Prezidentin Qarabağın, Şərqi Zəngəzurun "yaşıl enerji zonası"na çevrilməsi ilə bağlı qarşıya qoyduğu vəzifələr uğurla icra olunur. Qarabağın bütün bölgələri kimi, Ağdamın da yenidən qurulmasında, bərpasında sözügedən istiqamətlər əsas götürülür. Ağdam məscidinin, "İmarət" Kompleksinin, Natəvanın qəbrinin bərpası, Rəqəmsal İdarəetmə Mərkəzi və Təlim-Tədris Kompleksinin, Ağdam Muğam Mərkəzinin, yaşayış məhəllələrinin, eləcə də Bərdə-Ağdam dəmir yolu xəttinin, "Ağdam-1", "Ağdam-2" yarımstansiyalarının tikintisi və digər təhsil, mədəniyyət sahələrinə dair quruculuq tədbirləri də belə deməyə əsas verir.

Qarabağa, Şərqi Zəngəzura Böyük Qayıdış proseslərinin tərkib hissəsi kimi, bölgənin iqtisadiyyatının inkişafı prioritet hədəflərdəndir. İqtisadi dinamikliyin təminindən, istehsalın şaxələndirilməsindən danışan zaman bu xüsusda sənaye parklarının yaradılması da mühüm addım, səmərəli fəaliyyət kimi dəyərləndirilməlidir. Hazırda ölkə üzrə 8 rayonu əhatə edən "Araz Vadisi İqtisadi Zonası" sənaye parkları fəaliyyət göstərir ki, onlardan ikisi işğaldan azad olunan Ağdam, Cəbrayıl rayonlarında yerləşir. Ağdam Sənaye Parkı dövlət başçımızın 2021-ci il 28 may tarixli Fərmanına əsasən yaradılıb,190 hektar ərazini əhatə edir. Parkın yaradılmasında məqsəd işğaldan azad edilən ərazilərin dirçəldilməsi, Qarabağın sənaye potensialının reallaşdırılması, sahibkarlığın dəstəklənməsi, əhalinin istehsal sahəsində məşğulluğunun artırılmasıdır. Ötən il sentyabrın 19-da Prezident İlham Əliyevin iştirakı ilə Ağdam Sənaye Parkında altı sənaye müəssisəsinin açılış mərasimi baş tutdu. Sənaye Parkında yaradılan həmin müəssisələr elektrik paylayıcı avadanlıqların və elektrik yuvaları, dam və fasad örtükləri, havalandırma, yanğınsöndürmə avadanlıqları və müxtəlif metal məmulatları, divar kağızları, müxtəlif növ ayaqqabıların, avtomatlaşdırma və telemexanika sistemlərinin istehsalını həyata keçirir. Hazırda Ağdam Sənaye Parkında 9 müəssisə fəaliyyət göstərir. Parkda istehsal edilən məhsulların daxili bazara satışı ilə yanaşı, ixracı istiqamətində də uğurlar əldə olunub. Sənaye Parkının rezidentləri tərəfindən 22,3 milyon manatlıq məhsul satılıb. Belə ki, cari ildə müxtəlif çeşiddə qoruyucu ayaqqabı və poliuretan çəkmələrin istehsalı üzrə ixtisaslaşmış "BAFCO İnvest" MMC tərəfindən Rusiya, Qazaxıstan, Özbəkistan və Birləşmiş Ərəb Əmirliklərinə məhsul ixrac edilib. Hazırda ixracyönümlü fəaliyyətə dair müvafiq işlər həyata keçirilir.

***Sarıcalılar üçün yeni tarix: uzun illərdən sonra Böyük Qayıdış, böyük xoşbəxtlik***

Ağdam rayonunun yenidən qurulması prosesinə diqqəti çəkən zaman bu bölgəmizin işğal zamanı üzləşdiyi vandalizmdən bəhs etməsək olmaz. Bəli, dəfələrlə dağıdılmış, yandırılmış, viran edilmiş Ağdam Ermənistanın həyata keçirdiyi anti-Azərbaycan siyasətinin ən bariz ifadəsidir. Təsadüfi deyildir ki, 2008-ci ildə "Lonely Planet" jurnalı tərəfindən Ağdam "Qafqazın Xirosiması" adlandırılıb. 2010-cu ildə məşhur "Əl-Cəzirə"nin internet nəşri isə rayonu "Ruhlar şəhəri" siyahısına salıb. Otuz ilə yaxın ədalətsiz gedişata, nəhayət ki, 2020-ci ildə Azərbaycan dövləti, xalqı tərəfindən xitam verilib, 44 günlük Vətən müharibəsindən sonra digər azad olunmuş torpaqlarımız kimi, Ağdamın da qara günləri bitib, bu yurdumuz da ağ günə çıxıb. Martın 27-də rayonun Sarıcalı kəndinin birinci mərhələdə açılışı münasibətilə sakinlərlə görüşü zamanı ölkə başçısı soydaşlarımızı əlamətdar hadisə münasibətilə təbrik edib, düşmən tərəfindən Ağdam şəhəri və rayonun bütün kəndlərinin tamamilə dağıdıldığını diqqətə çatdırdı, bu barbarlığı erməni faşizminin pik nöqtəsi adlandırdı: ***"İşğala son qoyulandan sonra həm Azərbaycan vətəndaşları, həm xarici qonaqlar gəlməyə başladılar və gördülər ki, biz hansı düşmənlə üz-üzə idik. Yəni işğal dövründə şəhər tamamilə söküldü, yerləyeksan edildi və Ağdamı "Qafqazın Xirosiması" adlandırırlar. Amma fərq ondadır ki, Xirosima atom bombası nəticəsində viran qoyulmuşdur, Ağdamı isə 30 il ərzində oğrular, talançılar, erməni talançılar sökərək daşlarını da aparıb müxtəlif yerlərdə satırdılar. Yəni bu, misli görünməmiş vəhşilikdir. Mən bunu dəfələrlə demişdim, erməni faşizmi faşizmin ən yüksək nöqtəsidir".***

Prezident İlham Əliyevin ***"Biz Ağdamı yenidən qururuq və quracağıq"*** ideyası bu gün rayonun Sarıcalı kəndinin də timsalında öz təntənəsini yaşayır. Bəli, tarixi Zəfərdən sonra quruculuq işlərinin geniş vüsət aldığı yaşayış məntəqələrindən biri də Sarıcalıdır.

Kənd Ermənistan silahlı qüvvələri tərəfindən 1993-cü il iyulun 23-də işğala məruz qalıb. Otuz ilə yaxın müddətdə kənd viran qoyularaq xarabalığa çevrilib, burada evlərlə yanaşı, məktəb, uşaq bağçası, səhiyyə, ticarət, iaşə obyektləri də vəhşicəsinə məhv edilib. Vətən müharibəsində ordumuzun şanlı Qələbəsindən sonra üçtərəfli Bəyanata əsasən Ağdam rayonu noyabrın 20-də dinc şəkildə, bir güllə atılmadan Azərbaycana qaytarılıb. Sarıcalı kəndi işğaldan azad edildikdən sonra burada azərbaycanlılara aid kütləvi məzarlıq aşkarlanıb. İşğaldan əvvəl kənddə 239 ailə, ümumilikdə, 1024 nəfər yaşayıb. Martın 27-də birinci mərhələ üzrə istifadəyə verilən, Ağdam şəhərinin mərkəzindən 6 kilometr məsafədə yerləşən bu yaşayış məntəqəsinin təməli 2022-ci il oktyabrın 4-də Prezident İlham Əliyev tərəfindən qoyulub. Sarıcalı kəndi 1873 nəfər (425 ailə) üçün planlaşdırılıb. Ümumilikdə, kənddə 2 mərhələ üzrə 425 fərdi evin inşası nəzərdə tutulub. Artıq iki, üç, dörd və beşotaqlı olmaqla, 203 fərdi ev inşa edilib. Həmçinin Sarıcalı kəndində körpələr evi-uşaq bağçası, 14 sinif otağı olan 360 şagird yerlik tam orta məktəb də istifadəyə verilib, yaşayış məntəqəsində əhalinin məşğulluğunun təmin edilməsi üçün hər cür şərait yaradılıb, iqtisadi, sosial və məişət təyinatlı müxtəlif müəssisələr, klub-icma və mədəniyyət mərkəzləri tikilib, sosial məsələlər də öz həllini tapıb. Kənddaxili yollar, elektrik, rabitə, su xətləri çəkilib, qaz təchizatı təmin olunub. Martın 27-də yeni mənzillərə köçən sakinlərlə görüşdə, onlara evlərin açarlarının təqdim edilməsi mərasimində iştirak zamanı Prezident İlham Əliyev bu tarixi hadisəni böyük xoşbəxtlik adlandırdı: ***"Bu yaxınlarda Novruz bayramını qeyd etmişik. Novruz bayramı ərəfəsində Ağdərə rayonunun Həsənriz kəndinin sakinləri ilə görüşmüşdüm, onlara evlərinin açarlarını təqdim etmişdim. Bu gün isə burada – Ağdam rayonunun bərpa edilmiş birinci kəndinin sakinləri ilə görüşmək, əlbəttə ki, böyük xoşbəxtlikdir. Uzun fasilədən sonra siz doğma torpağınıza qayıtmısınız. Burada sizin üçün gözəl şərait yaradılıb".***

Bəli, tarixi Zəfərin 5-ci ildönümündə, nəhayət ki, Ağdamın Sarıcalı kəndinin sakinləri üçün də otuzillik Vətən, yurd həsrəti böyük xoşbəxtliklə əvəz olunur. Beləliklə, bütün dünya bir daha Azərbaycan dövlətinin iqtisadi qüdrətinə, nümunəvi qayıdış, quruculuq siyasətinə və xalqımızın qurmaq, yaratmaq əzminə şahidlik edir, qısa zamanda əldə olunan bu böyük uğura, bu nailiyyətə həsəd aparır. Prezident İlham Əliyevin də dediyi kimi: ***"Bax, biz belə şəhər qururuq. Yadımdadır, işğaldan sonra ilk dəfə Ağdamda ağdamlılarla görüşəndə və yeni şəhərin təməlini qoyanda mən demişdim, elə bir şəhər quracağıq ki, bütün dünya bizə həsəd aparacaq. Bütün bunlar öz gücümüzə həll olunan layihələrdir, məsələlərdir. Azərbaycan dövləti bu gün bu işləri görməyə qadirdir. Mən təkcə Ağdam rayonunda gedən işləri sadaladım. Amma əgər bütövlükdə azad edilmiş torpaqlarda gedən işləri götürsək, qısa müddət ərzində bu qədər bərpa işləri heç bir ölkədə heç vaxt görülməmişdir".***

**✍ Nail ƏSGƏROV**

# Tarixi zəfərin müjdəçisi – Aprel döyüşləri

*Azərbaycanın müasir hərb tarixinin şanlı qəhrəmanlıq səhifələrindən sayılan Aprel döyüşlərindən 9 il ötür. 2016-cı il aprelin əvvəllərində hərbi mövqe və yaşayış məntəqələrimiz Ermənistan silahlı qüvvələri tərəfindən intensiv artilleriya atəşinə tutuldu və beləliklə, ordumuzun əks-həmləsi ilə başlayan bu savaş müddətcə kiçik olsa da, düşmənə qarşı sarsıdıcı, sonrakı proseslərə təsir baxımından böyük əhəmiyyətli hadisə kimi tarixə düşdü. Dördgünlük döyüş Azərbaycan silahlı qüvvələrinin qüdrətini, çevikliyini, peşəkarlığını, bölmələr arası koordinasiyanın düzgünlüyünü, həyata keçirilən ordu quruculuğunun effektivliyini ortaya çıxardı, xalq-ordu birliyinin daha da güclənməsinə təkan verdi. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev Aprel döyüşlərində qazanılan qələbəni hər zaman yüksək dəyərləndirib:* ***"Aprel döyüşləri bizim şanlı hərbi qələbəmizdir, dövlətimizin, xalqımızın, ordumuzun gücünü göstərən qələbədir".***

Vətən müharibəsinin başlanmasından, təxminən, 4 il əvvələ təsadüf edən Aprel döyüşləri bütün dünyaya Azərbaycan xalqının, dövlətinin heç vaxt işğalla barışmayacağı, öz ərazi bütövlüyünü nəyin bahasına olursa-olsun, bərpa edəcəyi mesajını ən təsirli formada ötürdü. Aprelin 1-dən 2-nə keçən gecə başlayan əks-hücum əməliyyatı nəticəsində ordumuz Tərtər rayonunun Talış kəndi ətrafındakı, Cəbrayıl rayonunun Lələtəpə yüksəkliklərini, Cocuq Mərcanlı, Goranboy rayonunun Gülüstan və Tərtər rayonunun Suqovuşan kəndləri istiqamətində bəzi mövqeləri düşməndən azad etməyə müvəffəq oldu. Qətiyyətli, əzmkar Azərbaycan əsgər və zabitləri uzun illərdən, beyinlərə mərəz kimi yeridilən cəfəng erməni mifini alt-üst etdilər. Bu mənada, Aprel qələbəsini, ilk növbədə, mənəvi-psixoloji cəhətdən üstünlüyü Azərbaycan tərəfinə keçirən mühüm hadisə kimi xarakterizə etmək olar. Digər tərəfdən, bu, 1994-cü il mayın 12-də razılaşdırılmış atəşkəs rejimindən sonra qoşunların təmas xəttində baş vermiş və uzun illərdən sonra respublikamızın xeyrinə cəbhədə ciddi dəyişikliklərə yol açan ən böyük hərbi qarşıdurma idi. Belə ki, bölmələrimiz çeviklik, peşəkarlıq sayəsində düşmənin 3-4 gün ərzində ard-arda davam edən təxribatlarının qarşısını vaxtında alaraq əlverişli ərazilərə yiyələndilər, yeni mövqelər quruldu və mühəndis-istehkam tədbirləri həyata keçirildi. Ordumuz təmas xəttində mövcud vəziyyəti tam nəzarətə götürdü, gələcək uğurlu hərbi əməliyyatlar baxımından strateji üstünlüyə nail oldu.

2016-cı ilin aprelində baş verən döyüşlərdə Azərbaycanın parlaq qələbəsini səciyyələndirən digər mühüm amil isə əməliyyatlarda düşmənin ağır itkilərə məruz qoyulmasıdır. Müdafiə Nazirliyinin yaydığı məlumatlara görə, əks-həmlə nəticəsində 320-dən artıq düşmən məhv edilib və 500-dən artıq erməni hərbi qulluqçusu yaralanıb. Qarşı tərəfin 30-dək tankı və digər zirehli texnikası, 25-dən artıq artilleriya qurğusu sıradan çıxarılıb, Suqovuşan yaşayış məntəqəsində yerləşən qərargahı və əsas hərbi hissələri məhv olunub. Cəmi 3-4 gün ərzində verilən bu cür ciddi itkilər, xüsusən həmin dövrdə hakimiyyətdə olan Serj Sarkisyan iqtidarının apardığı ordu quruculuğunun düzgün konsepsiyaya əsaslanmadığı, genişmiqyaslı müharibəyə başlanacağı təqdirdə rüsvayçı məğlubiyyətlə üzləşəcəyi həqiqətini üzə çıxartdı.

Aprel döyüşlərində Azərbaycan hərbçiləri böyük şücaət və qəhrəmanlıq nümunəsi göstərdilər, Vətən torpağını öz canlarından üstün tutdular. Dörd gün davam edən savaşlarda Naxçıvandan olan igidlərin də hünərləri dastana çevrildi. Mayor Rasim Məmmədov və leytenant Qabil Orucəliyev qətiyyət və rəşadət nümayiş etdirərək adlarını əbədi yüksəkliyə həkk etdirdilər. Prezident İlham Əliyevin 2016-cı il aprelin 19-da imzaladığı müvafiq sərəncamlarla əməliyyatlarda rəşadət, cəsarət nümayiş etdirən Silahlı Qüvvələrimizin üç üzvü "Azərbaycanın Milli Qəhrəmanı" adına, 7 üzvü "Azərbaycan Bayrağı" ordeninə, 1 üzvü 2-ci dərəcəli və 4 üzvü 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeninə, 19 üzvü "Vətən uğrunda" medalına, 43 üzvü "İgidliyə görə" medalına, 45 üzvü "Hərbi xidmətlərə görə" medalına layiq görüldü, 2 üzvünə "general-mayor" ali hərbi rütbəsi verildi. Bu mənada, 2016-cı ilin Aprel döyüşləri gənc nəslin vətənpərvərlik ruhunda təlim-tərbiyəsində də mühüm rol oynadı, başqa sözlə, 4 günlük savaş Azərbaycan gəncini torpaqlarımızın azadlığı naminə 44 günlük zəfər yürüşünə hazırladı. Ölkə başçısı İlham Əliyev çıxışlarında Aprel əməliyyatlarında iştirak edən hərbçilərimizin qətiyyət və mübarizə əzmini yüksək qiymətləndirib: ***"Aprel döyüşlərində hərbçilərimiz qəhrəmanlıq göstərdilər. Şəhid hərbçilərimizin xatirəsi bizim qəlbimizdə, Azərbaycan xalqının ürəyində daim yaşayacaq. Eyni zamanda döyüşlərdən sonra hərbi hospitalda yaralı hərbçilərə baş çəkərkən gördüm ki, onlarda nə qədər böyük Vətən sevgisi var. Ağır yaralı vəziyyətdə olmalarına baxmayaraq, deyirdilər ki, bizim arzumuz tezliklə sağalıb yenə də cəbhə bölgəsinə getməkdir. Bax, budur, bu gün Azərbaycan gənci, Azərbaycan vətəndaşı, onun düşüncəsi, onun əqidəsi və Vətənə olan sevgisi. Bizim ölkəmizi gücləndirən əsas amillər bunlardır".***

Bəli, 2016-cı ilin Aprel döyüşləri Azərbaycan Silahlı Qüvvələrində böyük ruh yüksəkliyi, inam yaratmaqla yeni qələbələrin qazanılmasına vəsilə oldu. Həmin tarixi hadisədən iki il sonra, daha dəqiq desək, 2018-ci ilin may ayında uğurlu Günnüt əməliyyatı həyata keçirildi, 2020-ci ilin iyulunda isə Tovuz döyüşləri zəfər yürüşümüzün bir hissəsinə çevrildi. Və ən nəhayət, 2020-ci il sentyabrın 27-də Ermənistanın növbəti təxribatına cavab olaraq Azərbaycan Ordusunun 44 günlük əks-hücum əməliyyatı başlandı, nəticədə, 30 ildir, işğal altında qalan torpaqlarımız azadlığına qovuşdu. Xalqımız Müzəffər Ali Baş Komandanın "dəmir yumruğ"u ətrafında sıx birləşərək həmrəy şəkildə tarixi zəfər qazandı. 2023-cü ilin sentyabrın 19-20-də reallaşdırılan lokal xarakterli antiterror tədbirləri ilə ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa olundu. Beləliklə, Azərbaycanın son 200 illik tarixində misli görünməmiş tarixi Qələbəyə imza atıldı.

Aprel döyüşləri sayəsində Lələtəpə yüksəkliyinə qalxan üçrəngli Vətən bayrağı bu gün bütün azad Qarabağ torpaqlarının səmasını bəzəyir, qürur rəmzinə çevrilir. 2016-cı ildə Talış, Gülüstan, Suqovuşan istiqamətlərində ucalan zəfər sədaları 2020-ci ildə Şuşada, 2023-cü ildə Xankəndidə, Xocalıda təntənəsinə qovuşub, Cocuq Mərcanlı sakinlərinin öz doğma evlərinə köçü ilə başlanan qayıdış prosesini zənginlənlərin, füzulililərin, laçınlıların, ağdamlıların Böyük qayıdışları mükəmməl şəkildə tamamlayır. Hər bir azərbaycanlı zəfər salnaməmizin başlanğıc tarixi kimi Aprel döyüşlərini daim fəxrlə xatırlayır, həmin savaşlarda igidlik nümunəsi göstərərək şəhidlik zirvəsinə yüksələn oğulların əziz xatirəsini dərin hörmətlə, ehtiramla anır.

**Nail ƏSGƏROV**

## 4 gün, 4 il sonra 44 gündə əbədi qələbə oldu

Gecənin sükutunu yeri-göyü titrədən silah səsləri pozmağa başlayanda sanki yerlə göy birləşirdi. Hər kəs şirin yuxudan ayılıb kəndin küçələrinə axışırdı. Axı illərdir, bu yerin sakinləri silah səsinə yatıb, oyanırdılar. İllərdir, güllə yağışının əlindən əzizlərini ziyarətə gedə bilmirdilər. Amma ki, əvvəllər silah səsi eşidəndə təşvişə düşən insanlardan əsər-əlamət yox idi həmin gecə. Çünki onlar artıq öz dövlətinə, ordusuna güvənirdi. Ali Baş Komandana inanırdı. Vaxtilə ordusu, gücü olmadığı üçün evini tərk etmiş xocalılılar, şuşalılar, laçınlılar...

Səbri də tükənmişdi artıq onların. Səngərdə dayanan əsgərin də səbir kasası daşmışdı həmin gecə. İllərdir, ürəyimizdə qaysaq qoyan yaranın qabığı qopmuşdu artıq. Azərbaycan əsgəri xalqından güc alıb irəli atılmışdı. Alazanların səsindən qulaq tutulsa da, heç kəs cəbhə kəndlərini tərk etmək fikrində deyildi. Yurdundan didərgin düşməyin acısı ilə yaşayan ailələr yaxşı dərk edirdi nələrin baş verdiyini. Düşmən hədəflərini dağıtmağa gedən mərmilərdən çıxan qığılcımların qələbəyə gedən yolun ilk işığı olduğunu kənd camaatı artıq duymuşdu. Həmin gecə ta səhər dan yeri ağarana kimi susmaq bilmədi silahlar. Bütün cəbhəboyu kəndlər gözünü bir an belə yummadı. Dörd gün, üç gecə. Hamı cəbhədən gələn xəbərləri sevinclə qarşıladı. Düşmən mərmisinə tuş gəlib dağılan evlər heç kimin kefini poza bilmirdi. Üçrəngli bayrağa bükülüb gələn tabutlar alqışla qarşılanırdı. Axı onlar bizə şanlı qələbəni gətirmişdi. Gözlərə işıq, Vətən həsrəti ilə döyünən qəlblərə təpər vermişdi.

Tarixə 4 günlük müharibə, Aprel döyüşləri kimi yazıldı həmin günlər. Aprel döyüşləri qələbəyə gedən yolda çıraq oldu. Ümid işığı yandı bütün ürəklərdə. Qarabağa qayıtmaq ümidi oldu Lələtəpə, Talış yüksəklikləri. Cocuq Mərcanlının ən yüksək yerinə sancılan Azərbaycan Bayrağı hər kəsin qəlbində sevinc atəşi yandırdı. Cəmi altı ay sonra düşmənin xarabaya çevirdiyi Cocuq Mərcanlı cənnətə çevrildi. İllərdir, düşmən gülləsi ilə bağrı yarılan Vətən torpağında baharın al çiçəkləri açdı.

Həmin gün heç kimin ağlına belə gəlməzdi ki, cəmi 4 il sonra 4 gündə başlayan zəfər yolu 44 gündə Şuşaya gedib çatacaq.

Biz illərlə Qarabağın başıqarlı dağlarını lap uzaqdan seyr etdikcə ürəyimiz yananda, hər bahar gələndə dağlarda açan çiçəklərə baxıb kaş o gün olardı, öz evimizdə ocağımız yanardı deyəndə də ürəyimizdəki ümid sonsuz idi. Biz əmin idik ki, qələbə bizim olacaq. Bu xalq həmin 4 gündə qələbəni dadmışdı. Bu şanlı zəfər, 4 günlük döyüşün sonunda qazanılan qələbə xalqın öz ordusuna inamını daha da artırdı. Biz əmin olduq ki, sülh yolu ilə olmasa belə hərbi yolla torpaqlarımızı işğaldan azad edəcək ordumuz. Həmin günlərdə öz siyasi libasını hərbi forma ilə əvəz edib döyüş bölgəsinə səfər edən Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev Aprel döyüşlərinin iştirakçısı olan hərbçilərlə görüşdə deyib: ***"Aprel döyüşləri bizim şanlı hərbi qələbəmizdir, dövlətimizin, xalqımızın, ordumuzun gücünü göstərən qələbədir. Aprel döyüşləri nəticəsində Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğaldan azad edilmiş ərazilərində bu gün Azərbaycan Bayrağı dalğalanır. Bu döyüşlər onu göstərir ki, Azərbaycan xalqı və dövləti heç vaxt işğalla barışmayacaq, öz ərazi bütövlüyünü nəyin bahasına olursa-olsun, bərpa edəcəkdir".***

Və artıq biz beş ildir ki, həmin görüşdə deyilən sözlərin sübuta yetirilməsinin sevinci ilə fərəhlənirik. Biz şanlı ordumuzun tarixə yazdığı qələbələri sadalamaqdan qürur duyuruq. Tarixin səhifəsinə öz qanı ilə 4 gündə zəfər yazan oğullarımızın şanlı mübarizəsinin davamını 44 gündə seyr edib dünyanın ən xoşbəxt xalqı olmaq sevincini yaşayırıq. Bəli, bu il, 2025-ci ildə Vətən savaşındakı şanlı qələbənin beş, Aprel zəfərinin isə doqquzuncu ildönümünü fərəhlə qeyd edirik. Və şəhid məzarları önündə başı dik, alnıaçıq dayanıb "Zəfər yazan oğullar, ruhunuz şad olsun!" – deyirik. Artıq Vətən bağında açan lalələri düşmən yox, biz seyr edirik. Cocuq Mərcanlıdakı məsciddən yüksələn azan səsi Şuşada, Laçında eşidilir.

"Qarabağ şikəstəsi" bütün dünyaya səs salır. Və bu xalq bir yaz səhərində qəlbimizə işıq salan Aprel günəşinin bir payız günündə bütün Azərbaycanı nura qərq etdiyi günləri heç vaxt unutmur, Vətən oğullarının minnətdarlıqla anırıq.

**Ramiyə ƏKBƏROVA**






# Konstitusion vəzifələrimiz və vətəndaşlıq borcumuz

*Hər bir insan vətəndaşı olduğu ölkə qarşısında müəyyən vəzifə və mənəvi məsuliyyət daşıyır. Bu isə vətəndaşlıq borcu və ya vətəndaşların konstitusion vəzifələri ilə bağlıdır. Cəmiyyətdə hər bir şəxsin davranışı və fəaliyyəti isə onun əməllərində ifadə olunur. Elə əməllər ki bunlar nə cəmiyyətə, nə də şəxsiyyətin mənafeyinə zərər vurmasın. Yəni hüquqa uyğun davranış hesab edilsin. Hüquqa uyğun davranış isə dövlətin hüquq normalarında nəzərdə tutulan ictimai və şəxsi mənafelərin ödənilməsinə yönəlmiş sosial faydalı hərəkətdir.*



**Faiq SƏFƏROV**
***Naxçıvan Muxtar Respublikası Prokurorluğunun şöbə rəisi, baş ədliyyə müşaviri, prokurorluğun fəxri işçisi***

Azərbaycan Respublikası Konstitusiyasının 4-cü fəsli vətəndaşların əsas vəzifələrinə həsr olunub. Əsas Qanunumuzda qeyd edilir ki, dövlət və cəmiyyət qarşısında hər bir şəxs onun hüquq və azadlıqlarından bilavasitə irəli gələn vəzifələr daşıyır. Hər kəsin üzərinə vəzifələr yalnız Azərbaycan Respublikasının Konstitusiyası ilə və ya qanunla qoyula bilər. Hər bir şəxs Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına əməl etməli, başqa şəxslərin hüquq və azadlıqlarına hörmət bəsləməli, qanunla müəyyən edilmiş digər vəzifələri yerinə yetirməlidir. Hər bir şəxs həm dövlət qarşısında, həm də cəmiyyət qarşısında müəyyən öhdəliklər daşıyır. Cəmiyyətin mütəşəkkilliyi isə ümumi maraqlarla şəxsi maraqların harmoniyasından yaranır. Belə maraqların ahəngdarlığı ictimai həyatın sabitliyini və inkişafını təmin edir. Çünki hər birimiz yaşadığımız cəmiyyətin bir üzvü kimi müəyyən öhdəliklər daşıyırıq. Şəxsi hüquq və vəzifələr bir-biri ilə sıx bağlı olan və hüquq münasibətlərinin məzmununu müəyyən edən ən vacib ünsürlərdən biridir. Ulu Öndər Heydər Əliyev deyirdi: ***"Heç bir vətəndaş ictimai-siyasi həyata biganə qalmamalıdır".*** Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürk isə qeyd edirdi ki, *"Vətənini ən çox sevən vəzifəsini ən yaxşı yerinə yetirəndir"*.

Vətən millətin və xalqın yer üzərindəki ünvanıdır. Vətənə sədaqət isə müqəddəsdir. Ulu Öndər Heydər Əliyev qeyd edirdi: ***"Gərək nəbzin Vətənin nəbzi ilə vursun".*** Bu müqəddəslik isə həm mənəvi borc, həm də konstitusion vəzifədir. Vəzifəyə seçilmə və ya təyinat yolu ilə qanunvericilik, icra və ya məhkəmə hakimiyyəti orqanlarında işləyən şəxslər öz vəzifələrini dürüst və layiqincə yerinə yetirməməyə görə məsuliyyət daşıyırlar və qanunla müəyyən edilmiş hallarda and içirlər. Vətənə sədaqət vəzifəsindən və kimliyindən asılı olmayaraq, hər bir vətəndaşın müqəddəs borcudur. Əxlaqi baxımdan isə Vətənə sədaqət hər bir şəxsdə vətənpərvərlik hisslərinin olması ilə müəyyən edilir. Vətənə sədaqət vətənpərvərlikdən başlayır. Vətənə sədaqət təkcə vətəndaşların "Sədaqət andı" ilə məhdudlaşmır. Ümummilli Liderimiz deyirdi: ***"Vətənpərvərlik insanın daxilindəki duyğulardır. Əgər bunlar yoxdursa, o insan mənəviyyatsızdır".***

Konstitusiyada təsbit olunmuş digər bir vəzifə isə dövlət rəmzlərinə hörmətdir. Hər bir vətəndaş Azərbaycan Respublikasının dövlət rəmzlərinə – bayrağına, gerbinə və himninə hörmət etməlidir. Azərbaycan Respublikasının dövlət rəmzləri Azərbaycan Respublikasının Dövlət Bayrağı, Azərbaycan Respublikasının Dövlət Gerbi və Azərbaycan Respublikasının Dövlət Himnidir. Dövlər rəmzləri hər bir dövlətin varlığını təcəssüm etdirən əsas amildir. Ulu Öndər qeyd edirdi: ***"Xalqımız üçün qürur hissini yaradan, iftixar hissini verən odur ki, o artıq azad yaşayır, öz taleyinin sahibidir və Azərbaycan xalqının dünya xalqları içərisində imzası var".*** Bəli, xalqın imzası onun dövlət rəmzlərində ifadəsidir.

Konstitusiyada qeyd olunur ki, Vətəni müdafiə hər bir vətəndaşın borcudur. Qanunla müəyyən edilmiş qaydada vətəndaşlar hərbi xidmət keçirlər. Vətənin müdafiəsində iştirak etmək və hərbi xidmət hər bir vətəndaşın hüquqi vəzifəsi olmaqla yanaşı, həm də onun müqəddəs borcudur. Ulu Öndər qeyd edirdi: ***"Xalqın, Vətənin taleyi hər bir insanın taleyinə çevrilməlidir".*** Hər bir Vətən övladı bilir ki, Vətən ancaq üzərində gəzdiyimiz, yaşadığımız torpaq parçası deyil. Vətən uğrunda nə qədər qurbanlar verilib. Özünün bayrağı, müstəqilliyi, suverenliyi, dövlət himni, sərhədləri olan torpağa Vətən deyilir. ***"Əgər hər hansı ölkənin xalqları öz hüquqlarını anlayır və onları qoruya bilirsə, o zaman ən kiçik dövlət belə ən böyük məmləkət qədər güclü olar"***, – deyirdi Ulu Öndər.

Vətən azadlıqdır. Torpağın Vətən olması üçün düşmənlərlə mübarizə aparmaq, onun üzərində zəfər qazanmaq lazımdır. Xalq yalnız öz Vətənini qorumaqla gələcəyinə təminat verə bilər. Vətənə olan sevgimiz bizi ucaldır. Vətənin müdafiəsi bizim üçün inanc, iman olmalıdır. 44 günlük Vətən müharibəsində isə xalqımız Ali Baş Komandanın rəhbərliyi altında müqəddəs Vətən torpaqlarını işğaldan azad etdi. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixinə qızıl hərflərlə "Zəfər Günü" kimi yazıldı. Uğrunda minlərlə şəhid verdiyimiz bu torpağın mənəvi dəyəri çox yüksəkdir. Vətən bizə əcdadlarımızın ən dəyərli əmanətidir. Şair Məmməd Arazın poetik dili ilə desək: "*Vətən daşı olmayandan, olmaz ölkə vətəndaşı*".

***"Mədəniyyət bəşəriyyətin topladığı ən yaxşı nümunələrlə xalqları zənginləşdirir"***, – deyirdi Ulu Öndər. Tarix və mədəniyyət abidələrini qorumaq isə hər bir şəxsin borcudur. Çünki tariximizin hər səhifəsi bizim üçün əzizdir. Tarix və mədəniyyət abidələrinin qorunması, öyrənilməsi və ondan səmərəli istifadə edilməsi ilə bağlı münasibətlər isə müfaviq qanunvericilik aktları ilə tənzimlənir. Lakin tarix və mədəniyyət abidələrini qorumaq təkcə qanunvericilik aktları ilə yox, həm də vətəndaşlıq borcu naminə olmalıdır. Çünki Ümummilli Liderin qeyd etdiyi kimi: ***"Yüksək mədəniyyətə malik olan xalq həmişə irəli gedəcək, həmişə yaşayacaq, həmişə inkişaf edəcəkdir".***

Ətraf mühiti qorumaq və ona qayğı ilə yanaşmaq vəzifəsi həm hüquqi, həm də əxlaqi dəyərlərlə ölçülür. Hər bir şəxs öz həyat fəaliyyəti prosesində bu və ya digər formada təbiətlə, ətraf mühitlə təmasda olur. Buna görə də hər kəs istər məişətdə, istərsə də istirahət zamanı qanunvericiliklə müəyyən edilmiş vəzifəsini yerinə yetirməlidir. Ətraf mühiti qorumaq vəzifəsi əmək fəaliyyəti nəticəsində təbiətdən istifadə edən və ətraf mühitə təsir edə biləcək hər bir şəxsin üzərinə düşür. Təbiəti qorumaq üçün məcburiyyətdən öncə təbiətə sevgi lazımdır. Bəli, təbiət düşünür və düşündürür. Ətraf mühiti qorumaq və ona qayğı ilə yanaşmaq cəmiyyətin hər bir üzvünün mənəvi borcudur.

Görkəmli dövlət xadimi Heydər Əliyevin ölkənin ekoloji vəziyyətinin yaxşılaşdırılması, ağacların əkilməsi, xüsusən də Bakıda və Abşeron yarımadasında yaşıllıq zolaqlarının genişləndirilməsi üçün verdiyi tapşırıqlar, su ehtiyatlarının çirklənməsinin qarşısının alınması, ölkənin su təchizatı, inkişafı və dirçəlişi istiqamətində gördüyü tədbirlər Onun layiqli davamçısı, ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi altında bu gün də uğurla davam etdirilir. 15 dekabr 2023-cü ildə BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının ölkəmizdə keçirilməsi ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə keçirilən müşavirədə cənab Prezident bildirmişdir: ***"Mən şübhə etmirəm ki, COP29 beynəlxalq konfransını da biz yüksək səviyyədə keçirəcəyik, bu, ölkəmizin, xalqımızın növbəti böyük uğuru olacaq. Eyni zamanda Azərbaycan neft-qaz ölkəsi kimi bu sahədə də özünü göstərəcəkdir və dünyada hər kəs bir daha görəcək ki, bizim gündəliyimiz "yaşıl enerji" ilə bağlıdır. "Yaşıl enerji" növlərinin yaradılması və "yaşıl enerji"nin dünya bazarlarına nəqli hazırda bizim enerji siyasətimizin prioritetidir. Bu, reallıqdır və bütün dünya bunu bir daha görəcək".***

Konstitusiyada müəyyən edilmiş vəzifələr hər birimiz üçün vətəndaşlıq borcudur. Heç kəs Azərbaycan Respublikasının Konstitusiyasına və ya qanunlarına zidd vəzifələrin icrasına məcbur edilə bilməz. Konstitusiyanın və qanunların pozulması, o cümlədən Konstitusiyada və qanunlarda nəzərdə tutulan hüquqlardan sui-istifadə və ya vəzifələrin yerinə yetirilməməsi qanunla müəyyən edilən məsuliyyətə səbəb olur. Yəni hüquqi vəzifələr hüquq və azadlıqların məhdudlaşdırılmasını tələb edir. Bu məhdudlaşdırmalar isə başqa şəxslərin hüquq və azadlıqlarını lazımi şəkildə qəbul etmək və ona hörmətlə yanaşmaqda ifadə olunur.

Hər bir şəxs isə cəmiyyət qarşısında öz məsuliyyətini dərk edərək vətəndaşı olduğu dövlətin əbədiliyi, mənsub olduğu xalqın tərəqqisi naminə öz vətəndaşlıq borcunu layiqincə yerinə yetirməlidir. Çünki bu əminliyi və inamı müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı Ulu Öndər vermişdir: ***"Mən inanıram, əminəm ki, biz müstəqilliyin geniş yoluna çıxacağıq və Azərbaycan müstəqil dövlət kimi yaşayacaq, Azərbaycanın dövlət müstəqilliyi əbədi, dönməz olacaq və bizim müstəqilliyimizi, milli azadlığımızı heç kəs heç bir yolla sarsıda bilməyəcəkdir".***

***Məqalə "Şərq qapısı" qəzetinin elan etdiyi "Müstəqil Azərbaycan: "Konstitusiya və Suverenlik İli"nin təntənəsi" mövzusunda yaradıcılıq müsabiqəsinə təqdim etmək üçündür.***

# Prezident İlham ƏLİYEV:

**"Müstəqil və suveren dövlətə sahib olmaq, milli-mənəvi dəyərlərə, həmrəylik, humanizm, ədalət və qanunun aliliyi prinsiplərinə əsaslanan inkişaf etmiş cəmiyyət qurmaq yüzillər boyu Azərbaycan xalqının ən böyük arzusu olmuşdur. Tarixin müxtəlif mərhələlərində kənar müdaxilələrə, məhrumiyyətlərə baxmayaraq, xalqımız milli kimliyini, mübarizə ruhunu qoruyub saxlamış, öz ideallarına həmişə sadiq qalmış və XX əsrin sonlarında dövlət müstəqilliyini bərpa etmişdir...**

**Bu gün Azərbaycan Respublikası xalqımızın milli maraqlarını rəhbər tutaraq, yeni reallıqlar şəraitində müstəqil siyasətini daha cəsarətlə, prinsipiallıqla davam etdirir, Konstitusiyanın tələblərinə və öz suveren hüquqlarına əsaslanaraq, qarşıda duran strateji hədəflərə doğru inamla irəliləyir."**

## "Şərq qapısı" qəzeti yaradıcılıq müsabiqəsi elan edir



"Şərq qapısı" qəzetinin elan etdiyi "Konstitusiya və Suverenlik İli"nə həsr olunmuş "Müstəqil Azərbaycan: Konstitusiya və Suverenlik İlinin təntənəsi" mövzusunda yaradıcılıq müsabiqəsində hər kəs iştirak edə bilər.

Yaradıcılıq müsabiqəsi qəzet məqaləsi istiqaməti üzrə keçirilir. Müsabiqədə iştirak etmək istəyənlər hazırladığı yazı işini "Şərq qapısı" qəzeti redaksiyasına təqdim etməlidirlər. Müsabiqəyə təqdim edilmiş materialların qiymətləndirilməsi münsiflər heyəti tərəfindən aparılacaq.

Müsabiqə çərçivəsində iştirakçılar tərəfindən hazırlanacaq materiallar Naxçıvan Muxtar Respublikasında Konstitusiya quruculuğu, sosial-iqtisadi inkişaf, səhiyyə, mədəniyyət, təhsil, vətənpərvərlik, ordu quruculuğu, gənclər sahəsində görülən işlər, ekologiya, idman, müasir inkişaf mənzərəsi, naxçıvanlı döyüşçülərin Vətən müharibəsindəki döyüş yolu, göstərdikləri qəhrəmanlıqlar və digər istiqamətlərdən birini və ya bir neçəsini əhatə etməlidir. Müsabiqəyə təqdim olunan məqalələr qəzetdə və ya informasiya portallarında dərc edilmiş olmalıdır. Müsabiqəyə təqdim edilən yazılar A4 ölçülü kağızda çap olunmuş halda (dərc olunduğu qəzetin nüsxəsi ilə birlikdə, yaxud dərc edildiyi saytın müvafiq linki qeyd edilməklə), müəllif haqqında məlumatla birgə təqdim olunmalıdır.

Müsabiqə 1 aprel-30 avqust 2025-ci il tarixlərdə keçiriləcəkdir. Yaradıcılıq müsabiqəsində iştirak etmək istəyənlər hazırladıqları yazıları 30 avqust 2025-ci il tarixədək "Şərq qapısı" qəzeti redaksiyasına təqdim etməlidir. Qaliblər sentyabr ayında keçiriləcək tədbirdə elan olunacaq və mükafatlandırılacaqdır. Müsabiqədə yer tutan və fərqlənən iştirakçılara pul və qiymətli hədiyyələr təqdim olunacaq.



# "Konstitusiya və Suverenlik İli" 2025

## "Konstitusiya və Suverenlik İli" ədliyyə orqanlarının da qarşısında böyük vəzifələr qoyur



*Azərbaycanın uğurlu inkişafının, dövlət siyasətinin əsasını insan hüquq və azadlıqlarının qorunması, yeni müdafiə mexanizmlərinin müəyyənləşdirilməsi təşkil edir. Müasir dövrdə ictimai həyatın, cəmiyyətin harmonik və sabit inkişafının təmin edilməsi hüquqi dövlət quruculuğunun əsas istiqamətlərindən sayılır. Ölkəmizdə mövcud olan yeniliklərin, davamlı islahatların lokomotivi qismində çıxış edən hüquqi dövlət anlayışı, bütövlükdə, sabit inkişafın əsas təməl prinsipidir. Yerləşdiyi regionun lider dövlətinə çevrilən Azərbaycan özünün inkişaf strategiyasını ən vacib parametrlər üzərində formalaşdırır. Vətən müharibəsindəki qələbə, antiterror tədbirləri nəticəsində suverenliyimizin bərpa olunması ölkəmizi yeni inkişaf mərhələsinə gətirib çıxarıb. Atdığı addımlarda, apardığı uğurlu siyasətdə hər zaman beynəlxalq hüquqa və ədalətə, Konstitusiyaya, bir sözlə, ali hüquqa və qanuna əsaslanan dövlətimiz bütün dünyaya nümunə təqdim edir.*

**Yunis MƏMMƏDOV**
**Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Probasiya şöbəsinin rəisi, ədliyyə müşaviri**

1995-ci ildə qəbul olunmuş Konstitusiya müstəqil Azərbaycanın ilk, ümumilikdə isə ölkəmizin tarixində dördüncü Konstitusiyasıdır. 1995-ci il noyabr ayının 12-də ilk milli Konstitusiyamızın qəbulu müstəqillik tariximizin ən mühüm hadisələrindən biri olmaqla yanaşı, Ulu Öndər Heydər Əliyevin Azərbaycan dövlətçiliyi qarşısındakı böyük xidmətlərindən biri kimi tarixə yazıldı. Əsas Qanunumuzda insan hüquq və azadlıqlarına geniş yer verilməsi ölkəmizin demokratiya ideallarına sadiqliyinin göstəricisidir. Sonrakı illərdə Konstitusiyaya edilən əlavə və dəyişikliklər müasir çağırışları və yenilikləri özündə əks etdirməkdədir. 24 avqust 2002-ci il, 18 mart 2009-cu il, 26 sentyabr 2016-cı ildə keçirilən ümumxalq səsverməsi – referendumlarda həyata keçirilən əlavə və dəyişikliklər qanunvericilik bazasının zənginləşməsi, insan və vətəndaş hüquq və azadlıqlarının əhatə dairəsinin genişlənməsi, sosial-siyasi təsisatların fəaliyyət mexanizminin səmərəlilik səviyyəsinin artırılması istiqamətlərində müstəsna əhəmiyyət kəsb etdi. Azərbaycan Respublikasının Konstitusiyasında BMT-nin 1948-ci il Ümumdünya İnsan Hüquqları Bəyannaməsində və digər beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş insan hüquq və azadlıqları əhatəli şəkildə təsbit olunub.

Müstəqil Azərbaycanın Əsas Qanunu, eyni zamanda milli inkişafın dərin siyasi-hüquqi əsaslarını formalaşdırdı. İlk milli Konstitusiyamızın Azərbaycanın hüquqi, demokratik dövlət kimi formalaşmasındakı rolu əvəzolunmazdır. Konstitusiya ölkəmizdə hakimiyyət bölgüsünü təmin etməklə yanaşı, subyektlərin fəaliyyətinə hüquqi zəmində əlverişli şərait yaradıb. Bütün bunların fonunda isə həyata keçirilən islahatların davamlılığını təmin etmək mümkün olub.

Azərbaycanın dövlət müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması Konstitusiyanın preambulasında başlıca niyyətlərdən biri kimi göstərilir. 2020-ci il sentyabrın 27-də Ermənistanın təxribatlarına cavab olaraq başlanmış Vətən müharibəsində əldə edilmiş Zəfər, eləcə də 2023-cü il sentyabrın 19-20-də həyata keçirilmiş uğurlu antiterror əməliyyatı sayəsində ərazi bütövlüyümüz və suverenliyimiz tam bərpa olundu. Bu isə həm də o demək idi ki, artıq Azərbaycan Konstitusiyasının hüquqi qüvvəsi işğaldan azad edilmiş bütün ərazilərdə bərqərar edilib. Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 19 sentyabr tarixli Sərəncamına əsasən sentyabrın 20-si Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü elan edilib.

Yuxarıda qeyd olunan reallıqları ümumiləşdirsək deyə bilərik ki, 2025-ci ilin Azərbaycan Respublikasında "Konstitusiya və Suverenlik İli" elan edilməsi Azərbaycan xalqının birliyinin, həmrəyliyinin və gücünün ifadəsidir. Suveren, bütöv Azərbaycanın inkişaf tarixində adıçəkilən Sərəncam xüsusi əhəmiyyət kəsb edir. Bu qiymətli dövlət sənədi Azərbaycan Konstitusiyasının bəyan etdiyi niyyətlərdən biri kimi ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpa olunduğunu, 2025-ci ildə Konstitusiyamızın qəbul edilməsinin 30-cu və Vətən müharibəsində Qələbəmizin 5-ci ildönümü nəzərə alınaraq imzalanıb.

Azərbaycan xalqı bu gün əsrlərboyu arzusu ilə yaşadığı, mübarizə apardığı müstəqil, suveren, qalib dövlətə sahibdir. 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" kimi qeyd olunması isə ölkəmizin hərtərəfli inkişafında mühüm mərhələ olacaq, qüdrətli Azərbaycanın dünya ölkələri birliyində özünə layiqli yer qazanmasında, müstəqilliyimizin dönməz və əbədi olmasında özünəməxsus yer tutacağına zəmin yaradacaq.

### *Probasiya xidmətində olan məhkumların sosial adaptasiyası*

2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi dünyada yaşayan bütün azərbaycanlıları sevindirir, ölkənin digər qurumlarında olduğu kimi, ədliyyə işçilərinin də qarşısında mühüm vəzifələr qoyur. Belə ki, cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan cəzaların əsas məqsədi, məhkumların hüquqlarının qorunması, onların cəmiyyət tərəfindən yenidən qazanılması, azadlıqdan məhrumetmənin tətbiq edilən son vasitə olması və cinayətkarlığa qarşı dövlət tərəfindən hərtərəfli, sistemli yanaşmanın, eyni zamanda məhkumla yanaşı, bütövlükdə, cəmiyyətin mənafelərinin təminidir. Probasiya da məhz məhkumlara daha humanist yanaşmanın təzahür formasıdır.

Probasiya nəzarəti – azadlıqdan məhrumetmə ilə bağlı olmayan cəzalara məhkum edilmiş, şərti məhkum edilmiş, cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş və ya cəza çəkməsi təxirə salınmış məhkumların, habelə alkoqolizm və ya narkomaniyadan müalicə məqsədilə barəsində tibbi xarakterli məcburi tədbirlər təyin edilmiş şəxslərin üzərinə qanunla və məhkəmə qərarı ilə qoyulmuş vəzifələrin yerinə yetirilməsinə nəzarət edilməsinə, məhkumların islah olunması, sosial adaptasiya və reabilitasiyasına yönəlmiş kompleks sosial-hüquqi xarakterli tədbirlər sistemindən ibarətdir. Probasiya nəzarəti müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilir. Probasiya nəzarətini həyata keçirən icra məmurları bu məcəllə, "İcra haqqında" və "İcra məmurları haqqında" Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilənlərdən əlavə aşağıdakı vəzifələri yerinə yetirirlər:

- məhkəmə qərarı əsasında elektron nəzarət vasitələrini məhkumlara tətbiq etmək və məhkum tərəfindən həmin vasitələrdən istifadə qaydalarına riayət edilməsinə nəzarət etmək
- məhkumun olduğu yer müəyyən edilmədikdə 10 günədək müddətdə onun axtarılması ilə əlaqədar ilkin tədbirlər həyata keçirmək
- məhkumun olduğu yer 10 gündən artıq müddətdə müəyyən edilmədikdə onun barəsində axtarış elan olunması haqqında qərar qəbul etmək, qərarın surətini müvafiq icra hakimiyyəti orqanına göndərmək, həmçinin məhkumun tutulması barədə Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi ilə müəyyən edilmiş qaydada vəsatət vermək
- probasiya nəzarəti tətbiq edilən məhkumların islah edilməsi, sosial adaptasiya və reabilitasiyasına yönəlmiş tədbirləri həyata keçirmək.

Ümumilikdə, əgər cəza özlüyündə şəxs barəsində məhrumiyyətlər yaradılmasından və ya onun hüquq və azadlıqlarının məhdudlaşdırılmasından ibarət tədbirdirsə, probasiya cinayətkarlara tətbiq olunan bu məhdudiyyətlərin qismən azaldılmasına və onların cəmiyyətin üzvü kimi daha çox hüquqlarının realizəsi üçün şərait yaradır. Azadlıqdan məhrumetmə ilə bağlı olmayan sanksiyalar məhkumların cəmiyyətə yenidən qazandırılması, onlara verilən cəzaların optimallaşdırılması, penitensiar xidmət resurslarından istifadənin minimuma endirilməsi, eyni zamanda cinayətkarlığa qarşı mübarizə işinin sistemliliyi perspektivindən olduqca səmərəlidir. Probasiya azadlıqdan məhrumetmənin ailə münaqişələrinin, məhkumların əmək bazarında iştirakçılığın aşağı düşməsi və bir sıra antisosial və ya cinayət əməli həyata keçirməyə sövq edən səbəblərin nəticələrinin aradan qaldırılmasına kömək edir. Bu sahədə aparılan araşdırmalar və təhlillər göstərir ki, probasiyanın tətbiq edildiyi hallarda şəxslər daha sürətlə islah olunur, onların yenidən cinayət törətməsi hallarına daha az təsadüf edilir.

Probasiya xidmətində olan məhkumların sosial adaptasiyası istiqamətində sosial-psixoloji xidmət üzrə əlaqələrin inkişaf etdirilməsi, sosial müdaxilə, psixososial dəstək sahələrində qabaqcıl metodların tətbiqi, tədqiqat və təhlil işlərinin aparılması, konfranslar, seminarlar və maarifləndirici tədbirlərin təşkili, habelə bu istiqamətdə müasir dövrün tələblərinə cavab verən və ictimai maraqlara xidmət edən əməkdaşlıq münasibətlərinin qurulması əsas məqsədimizdir. Şərti məhkum edilmiş, cəzadan şərti olaraq vaxtından əvvəl azad olunmuş və ya məhkəmə tərəfindən cəzasının çəkilməsi təxirə salınmış şəxslərə göstəriləcək sosial-psixoloji xidmət ilə bağlı məsələlər təhlil edilib, bu sahədə görüləcək işlər daha da təkmilləşdirilməlidir.

Azadlıqdan məhrumetmə ilə nəticələnən cinayət törətmiş şəxslərin reabilitasiyasına baxıldıqda, prosesin kritik mərhələsi onların cəmiyyətə buraxılmasıdır. Bu, insanın həyatının bir neçə sahəsində dəstəyə ehtiyacı olduğu mühüm keçid anıdır. Tədqiqatlar göstərir ki, bu keçidin idarə olunması reabilitasiya prosesində çox vacibdir. Bu prosesin uğurlu olması üçün qurumlararası əməkdaşlıq lazımdır.

Şəxsin reinteqrasiya və reabilitasiyasının bütün aspektlərini dəstəkləmək üçün (məsələn, təhsil, səhiyyə, mənzil, məşğulluq) müxtəlif xidmətlər: həbsxana, sınaq müddəti, bələdiyyələr, QHT və digərləri arasında müsbət və həqiqi əməkdaşlıq olmalıdır. Məqsəd uzunmüddətli və ardıcıl reabilitasiya prosesini qurmaq, müsbət nəticələr əldə etmək imkanını artırmaq və təkrar cinayət hallarını azaltmaqdır. İdarələrarası əməkdaşlıq təşəbbüslərinin yaradılması üçün əsas komponentlər bunlardır: əməkdaşlıq, ümumi məqsədlər, ümid, ortaq maraq, siyasi iradə, peşəkarlar və maraqlı tərəflərin motivasiyası və müştərilərlə birlikdə müdaxilə planlarının birgə istehsalı, uğurla başa çatdırılan köçürmələrin sayına müsbət təsir və artırılması yeni layihələrdən praktikada daha geniş tətbiqi təşviq etmək, probasiya işçilərinin təliminə dəstək vermək və cinayət mühakiməsinin əsas tərəfdaşları, məsələn, prokurorlar və hakimlər arasında iki qarşılıqlı alətin təşviqi və anlaşılmasını artırmaq məqsədi daşıyır.

Probasiya xidməti ilə köçürmə proseslərində iştirak edən bütün maraqlı tərəflər arasında ünsiyyətin yaxşılaşdırılması, maneələrin müəyyən edilməsi və problemlərin həlli və təkmilləşdirilməsi ilə bağlı işlər aparılmalıdır. Bu əməkdaşlıqlar probasiya işçilərinin bilik, praktiki təcrübələrinin və bacarıqlarının artırılmasına xidmət edəcəkdir.

Probasiya xidməti tərəfindən aparılacaq təlimlər müştərilərlə bilavasitə işləyən probasiya praktikantlarının perspektivlərindən tutmuş prokurorlara, hüquqşünaslara və siyasət məsləhətçilərinə qədər geniş təcrübə qazandıracaqdır. Bundan əlavə, müzakirələr iş potensialının artırılmasına və transfer prosesinin cəlb edilmiş bütün maraqlı tərəflər üçün daha effektiv olmasına zəmin yaradacaq.



# Azad Kəlbəcər dirçəlir və yenidən qurulur

Kəlbəcər rayonu Azərbaycanın ən gözəl və strateji əhəmiyyətə malik bölgələrindən biri olub. Rayonun 1993-cü il aprelin 2-də Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilməsi Azərbaycan üçün həm ərazi itkisi, həm də insanların yaşadığı acı bir tarixi mərhələ oldu. Kəlbəcər öz təbii gözəlliyi ilə yanaşı, həm də Azərbaycanın şimal-qərb istiqamətindəki ən mühüm dağlıq ərazilərdən birini təşkil edirdi. Kəlbəcərin işğalı, həmçinin Azərbaycan üçün böyük bir strateji zərbə idi, çünki bu rayonda olan yüksək dağlar həm də ölkənin müdafiə xəttinin çox vacib bir hissəsini təşkil edirdi.

İşğal həm də böyük bir daxili çəkişmələrin yaşandığı, hakimiyyət uğrunda mübarizələrin cərəyan etdiyi bir dövrə təsadüf edirdi. Məhz bu dövrdə ölkənin daxili siyasi vəziyyəti güclü bir koordinasiya və qarşılıqlı əlaqə tələb edirdi, amma hakimiyyət uğrunda gedən mübarizə nəticəsində Kəlbəcərin də daxil olduğu ərazilər işğal olundu. AXC-nin təşkilatları və siyasi xadimləri işğal olunmuş torpaqları müdafiə etmək əvəzinə öz şəxsi maraqları və hakimiyyət davası ilə məşğul olurdular ki, bu da, nəticədə, Ermənistanın ərazilərimizi zəbt etməsinə səbəb oldu.

Kəlbəcərin işğalı ilə bağlı görüntülər və çəkilişlər o dövrdə hərcmərclik vəziyyətini əks etdirirdi. İşğaldan əvvəl Kəlbəcər Azərbaycanın mədəni və təbii sərvətlərlə zəngin olan rayonu idi. Təəssüf ki, bu bölgədə olan çoxsaylı yaşayış məntəqələri, mədəni irs və təbii gözəlliklər Ermənistan silahlı qüvvələri tərəfindən dağıdıldı, vətəndaşlar isə öz evlərini tərk edərək qaçqın vəziyyətinə düşdülər.

İşğaldan sonra Kəlbəcərin sakinləri uzun illər boyu öz doğma yurdlarına qayıtmağa ümid edərək yaşadılar.

Kəlbəcərin işğaldan azad edilməsi, 44 günlük Vətən müharibəsində qazanılan böyük zəfərin nəticəsində, hərbi siyasi iradənin qələbəsi kimi tarixə düşdü. 2020-ci ilin noyabr ayında bir güllə atılmadan Azərbaycan Silahlı Qüvvələri Kəlbəcər rayonuna daxil oldu. Prezident İlham Əliyevin rəhbərliyi altında bu ərazilər geri alındı və Kəlbəcər 27 illik işğaldan qurtuldu.

Azad Kəlbəcər həm də Azərbaycanın güc və qətiyyətinin simvoluna çevrildi. Azərbaycan xalqı Prezident İlham Əliyevin rəhbərliyi ilə öz torpaqlarını yenidən bərpa etməyə başladıqdan sonra Kəlbəcər də daxil olmaqla bütün azad edilmiş ərazilərdə yenidənqurma proseslərinə start verildi. Bu yenidənqurma yalnız hərbi, siyasi və sosial baxımdan deyil, həm də maddi-texniki və infrastruktur sahələrini də əhatə etdi. Kəlbəcərdə elektrik enerjisi, su təchizatı, yollar və digər infrastruktura dair layihələr həyata keçirildi. Bununla yanaşı, ərazinin tarixinin, mədəniyyətinin bərpası və yerli əhalinin geri dönməsi üçün ciddi addımlar atıldı.

Prezident İlham Əliyev Kəlbəcərin azad edilməsi ilə yanaşı, bu torpağın bərpası üçün ciddi bir proqram həyata keçirdi. Azərbaycan hökuməti Kəlbəcərin və digər azad edilmiş ərazilərin yenidən qurulması üçün hərtərəfli tədbirlər gördü. Həmçinin bu bölgənin təbii sərvətlərinin qorunması və inkişafı üçün müxtəlif layihələr həyata keçirildi.

Prezidentin bu ərazilərdə həyata keçirdiyi siyasət ölkənin milli birliyini və ərazi bütövlüyünü təmin etməklə yanaşı, həm də iqtisadiyyatın dirçəldilməsinə və regionun müasir infrastrukturla təmin edilməsinə xidmət edir. Bu da Azərbaycan xalqının öz torpaqlarına geri dönüşünü daha rahat və təhlükəsiz etməyə şərait yaradır.

Kəlbəcərin 27 il sonra azad edilməsi Azərbaycan xalqı üçün böyük fəxarətdir. Prezident İlham Əliyevin rəhbərliyi ilə Kəlbəcər yalnız işğaldan qurtulmayıb, həm də mənəvi və maddi baxımdan yenidən qurulur. Tarixi torpaqlara Böyük Qayıdış, Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi xalqın birliyinin və iradəsinin simvoludur. Qarabağın bütün ərazisinin, o cümlədən də Kəlbəcərin azad edilməsi Azərbaycan xalqının gücünün və mübarizə əzminin göstəricisidir, gələcək nəsillər üçün vətənpərvərlik dərsidir.

**Aysel GÖZƏLOVA**
*Naxçıvan şəhər 12 nömrəli tam orta məktəbin laborantı*

## Şəhid Rasim Məmmədovun anım günü ilə bağlı tədbir keçirilib



*Naxçıvan Dövlət Texniki Kollecində Aprel döyüşləri zamanı Lələtəpədə şəhidlik zirvəsinə ucalan mayor Rasim Məmmədovun anım gününə həsr olunmuş tədbir keçirilib.*

Əvvəlcə Azərbaycan Respublikasının ərazi bütövlüyü, suverenliyi uğrunda canından keçən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.

Tədbirdə çıxış edən Babək Rayon İcra Hakimiyyətinin başçısı Ovni Muradov Aprel döyüşlərinin tarixi əhəmiyyətindən bəhs edib. Aprel döyüşlərinin 44 günlük müharibədə qazanılan zəfərə aparan yol olduğunu vurğulayıb və Aprel döyüşlərindəki qələbədə Rasim Məmmədov, həmçinin onun kimi qəhrəman Vətən oğullarının misilsiz rolundan danışıb.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Ülkər Bayramova və "Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin sədri Sahil Tahirli də çıxış ediblər.

Tədbirin bədii hissəsində kollecin tələbə xor qrupu tərəfindən "Şəhidim" adlı mahnı ifa olunub. Ardınca isə Rasim Məmmədova həsr olunmuş şeirlər səsləndirilib və videoçarx nümayiş olunub. Qeyd edək ki, tədbirdə iştirak edən şəhidimizin anası Bəsti Məmmədovaya və övladı Asim Məmmədova xatirə plaketi təqdim edilib.

Tədbirdə iştirak edən, "Vətən fədailəri" layihəsinin dəstəkçisi Şahin Məmmədov Naxçıvan Dövlət Texniki Kollecinin direktoru Asəf Ruşanova şəhid kitabları toplusunu təqdim edib və tədbirə yekun vurulub.

Sonda isə xatirə fotosu çəkdirilib.

**Cavanşir BAĞIRLI**

# Aprel döyüşləri:
## *zəfərə aparan yolun başlanğıcı*



*Tarixin elə anları var ki, zamanın axarında, sadəcə, bir tarix kimi deyil, bir millətin tale qapısı kimi dayanır. 2016-cı ilin Aprel döyüşləri Azərbaycan xalqı üçün məhz belə bir qapı idi – Zəfərə aparan, ümidləri gerçəyə çevirən, haqqı güc halına gətirən bir qapı. O dörd gün ərzində Azərbaycan əsgərinin sinəsi Vətənin siparına çevrildi, şəhid qanı torpağa qarışdı. O dörd gün ümidin silaha çevrildiyi, ədalətin barıt qoxusu ilə yazıldığı günlər idi.*

***Müharibənin ilk sədası və tarixin sınağı***

Aprelin 2-si sübh tezdən düşmən növbəti dəfə dinc insanları hədəf aldı. Hər bir güllənin arxasında erməni vandalizminin illərlə yığılmış qaranlıq kölgəsi dayanmışdı. Amma bu dəfə tarix başqa yazıldı. Bu dəfə Azərbaycan Ordusu qətiyyətini ortaya qoydu, susmağa məhkum edilmiş torpaqları hayqırtı ilə sarsıtdı.

Azərbaycan əsgəri bu döyüşə təkcə silahı ilə deyil, illərin qisasını içində daşıyan qəlbi ilə girdi. O, sadəcə, torpaq üçün deyil, o torpağın hər qarışında yatan şəhid ruhları üçün döyüşürdü. Hər addım, hər irəliləyiş, hər zəfər xalqın sinəsinə vurulan həsrət pasını əridirdi. O gün həmin saatda, həmin anlarda Azərbaycan tarixi yenidən yazılırdı.

***Lələtəpə: yüksələn ruh, azad olan torpaq***

Lələtəpə yüksəkliyi – illərlə düşmənin pəncəsində inləyən torpaq. Amma torpaq, sadəcə, bir yüksəklikdən ibarət deyil. O torpaq gözləyirdi, səbir edirdi, üzərində gəzən yad addımları içində boğmağa hazır idi. 2016-cı ilin aprelində həmin torpaq artıq sahibinə qovuşdu. Azərbaycan Ordusunun qəhrəmanları Lələtəpəni azad edəndə sanki millətin belini bükən yük də qalxmış oldu. Bu yüksəklik, sadəcə, strateji mövqe deyildi, bu yüksəklik Azərbaycan xalqının on illərdir, məğlubiyyət zəncirini qırdığı yer idi. Düşmən anlamışdı ki, bu, başlanğıcdır – Azərbaycan artıq səbir etmir, Azərbaycan artıq susmur, Azərbaycan öz haqqı uğrunda vuruşmağa hazırdır.

***Naxçıvanın igidləri: torpaq üçün doğulanlar***

Naxçıvan tarixin bütün dövrlərində igidlər yurdu olub. Burada böyüyən hər bir oğul təkcə həyat üçün deyil, torpaq üçün, Vətən üçün doğulur. Aprel döyüşlərində də Naxçıvandan olan qəhrəman oğullar Vətənin müdafiəsində ön sıralarda dayandılar. Onların hər biri torpaq uğrunda döyüşməyi, torpaq uğrunda ölməyi, lakin torpağı heç zaman düşmənə verməməyi öz qanları ilə sübut etdilər. Rasim Məmmədov, Qabil Orucəliyev kimi...

***Aprel döyüşlərindən 44 günlük müharibəyə: zəfərin başlanğıcı***

Aprel döyüşləri 44 günlük Vətən müharibəsinin proloqu idi. O döyüşlərdə qazandığımız qələbə təkcə düşmənin canlı qüvvəsini yox etmədi, onların illərlə yaratdığı "məğlubedilməz ordu" mifini də parampərça etdi. Dörd il sonra, 2020-ci ilin payızında Aprel döyüşlərində başlanmış missiya tamamlandı. Artıq Azərbaycan əsgəri təkcə Lələtəpəni deyil, Şuşanı, Xankəndini, Cəbrayılı, Füzulini, Hadrutu və Qarabağın hər bir guşəsini azad etməyə başladı. Aprel döyüşləri xalqın ruhunu oyatdı, ona güc verdi, birliyimizin qələbəyə aparan yolunu işıqlandırdı.

44 günlük müharibə zamanı Aprel döyüşlərinin qəhrəmanları yenidən ön cəbhədə idilər. Onlar artıq təkcə yüksəkliklər üçün deyil, Qarabağın bütövlüyü üçün döyüşürdülər. Və bu dəfə qələbə tam idi, mütləq idi, dəyişilməz idi.

***Son söz əvəzi: tarix unutmur, xalq yaşadır***

Bu gün biz Aprel döyüşlərinin qəhrəmanlarını, torpaq uğrunda canından keçən şəhidlərimizi minnətdarlıqla xatırlayırıq. Onların qanı ilə yazılan tarix bu gün azad Qarabağda dalğalanan üçrəngli bayrağımızda əks olunub.

Aprel döyüşləri bizə bir həqiqəti öyrətdi: torpaq sahiblərinə məxsusdur. Onu işğal edə bilərsən, amma məhv edə bilməzsən. O torpaq üzərindəki igidlərin ruhunu daşıyırsa, o torpaq onu azad edəcək bir ordunu da yetişdirir. Və 2016-cı ilin Aprel döyüşlərində azadlıq üçün ilk addımı atan Azərbaycan Ordusu, 2020-ci ildə torpağını tam azad etməklə tarixə öz möhürünü vurdu.

Cocuq Mərcanlıdan başlanan şərəfli yol Şuşada böyük zəfərlə bitdi. Bu gün işğaldan azad edilmiş bütün ərazilərimizdə üçrəngli Dövlət Bayrağımız dalğalanır. Bu Zəfərə hər zaman milli birlik və bərabərlik nümayiş etdirən, işğalla barışmayan xalqımızın əzmi, Müzəffər Ali Baş Komandan İlham Əliyevin güclü, düşünülmüş siyasəti, Azərbaycan Ordusunun cəsurluğu, fədakarlığı və rəşadəti hesabına nail olduq. Bu gün istər Aprel döyüşlərində böyük qəhrəmanlıq göstərərək şəhid olanların, istərsə də Vətən müharibəsində, torpaqlarımızın ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərimizin ruhu şaddır. Onların, qazilərimizin qəhrəmanlıqları gələcək nəsillər üçün örnəkdir.

Şəhidlər ölməz, Vətən bölünməz!

**Qəzənfər ABDULLAYEV**
*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, Naxçıvan Həmkarlar İttifaqları Şurasının sədri*

# Azərbaycan Konstitusiyanın tələblərinə və suveren hüquqlara əsaslanaraq strateji hədəflərə doğru inamla irəliləyir



*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2024-cü il 28 dekabr tarixli Sərəncamı ilə 2025-ci ilin ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan olunması dövlətçilik tariximizin öyrənilməsi, eyni zamanda postmüharibə dövründə yeni milli ideoloji prioritetlərin böyük əhəmiyyət kəsb etməsi, qüdrətli Azərbaycanın dünya ölkələri sırasında özünə layiqli yer tutması, müstəqilliyimizin dönməz və əbədi olmasında bir çox prinsiplərin həm tarixi əhəmiyyətini, həm də mahiyyətini daha da ön plana çıxarmaq baxımından əvəzsiz rol oynayır.*

**Ülkər BAYRAMOVA**
**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı**

Suverenlik və dövlətçilik müstəqil dövlətlərin varlığını və inkişafını təmin edən əsas amillərdir. Bu anlayışlar təkcə dövlətin hüquqi və siyasi əsaslarını deyil, həm də milli kimliyini və birliyini ifadə edir. Azərbaycan Respublikasında suverenlik və dövlətçilik prinsiplərinin möhkəmləndirilməsi müasir dövlət quruculuğu və xalqın rifahı üçün zəmin yaradır. Ölkəmizdə 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi isə bu prinsiplərin həm tarixi əhəmiyyətini, həm də gələcəyə yönəlik strateji mahiyyətini daha da ön plana çıxarır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi haqqında Sərəncamında deyildiyi kimi: *"Bu gün Azərbaycan Respublikası xalqımızın milli maraqlarını rəhbər tutaraq, yeni reallıqlar şəraitində müstəqil siyasətini daha cəsarətlə, prinsipiallıqla davam etdirir, Konstitusiyanın tələblərinə və öz suveren hüquqlarına əsaslanaraq, qarşıda duran strateji hədəflərə doğru inamla irəliləyir".*

1995-ci ildə qəbul olunmuş Konstitusiya müstəqil Azərbaycanın ilk, ümumilikdə isə ölkəmizin tarixində dördüncü Konstitusiyasıdır. Azərbaycanın Konstitusiya quruluşunun tarixi hələ SSRİ dövrünə təsadüf edir. Azərbaycanın ilk Konstitusiyası 1921-ci il mayın 19-da, SSRİ Konstitusiyasına uyğunlaşdırılmış yeni redaksiyası isə 1925-ci il martın 14-də qəbul olunmuşdu. SSRİ dövrünün son Konstitusiyası isə 1978-ci ilin aprelin 21-də qəbul edilmiş qanunvericilik toplusudur.

1991-ci il oktyabrın 18-də qəbul edilmiş "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktında yeni Konstitusiyanın hazırlanması nəzərdə tutulsa da, 1991-1993-cü illərdə hakimiyyətdə olan qüvvələrin yarıtmaz fəaliyyəti ölkədə Konstitusiya qəbulunu mümkünsüz etdi. Həmin illərdə dövlətin daxilindəki anarxiya, özbaşınalıq, dövlət idarəçiliyi mexanizmlərinin formalaşdırılmaması vətəndaşların azad, hüquqi təminatını da təhlükə qarşısında qoyurdu. 1995-ci il noyabr ayının 12-də ilk milli Konstitusiyamızın qəbulu müstəqillik tariximizin ən mühüm hadisələrindən biri olmaqla yanaşı, Ulu Öndər Heydər Əliyevin Azərbaycan dövlətçiliyi qarşısındakı böyük xidmətlərindən biri kimi tarixə yazıldı. Konstitusiyamızda insan hüquq və azadlıqlarına geniş yer verilməsi ölkəmizin demokratiya ideallarına sadiqliyinin göstəricisidir.

Azərbaycanda hüquq sistemi, insan hüquqlarının təminatı və dövlət idarəetməsinin müasirləşdirilməsi sahəsində ciddi nailiyyətlər əldə edilib. Prezident İlham Əliyevin rəhbərliyi ilə konstitusiya prinsiplərinin dərinləşdirilməsi üçün ardıcıl islahatlar həyata keçirilib. Ölkəmizin sürətli inkişafı nəticəsində yeni dövrün tələblərinin yaratdığı zərurətlə əlaqədar 2002-ci il avqustun 24-də referendum yolu ilə Konstitusiyanın 24 maddəsində, 2009-cu il martın 18-də isə 29 maddəyə əlavə və dəyişikliklər edilib. Bu dəyişikliklər Azərbaycan dövlətinin sosial-iqtisadi bazasının gücləndirilməsi, həmçinin vətəndaşların hüquq və azadlıqlarına daha etibarlı təminat verilməsindən irəli gəlir.

Prezident İlham Əliyevin təşəbbüsü ilə 2016-cı il sentyabrın 26-da keçirilmiş referendumla Konstitusiyaya üçüncü dəfə əlavə və dəyişikliklər edilib. Konstitusiyanın 29 maddəsinə olunan əlavə və dəyişikliklər müxtəlif sahələri əhatə etməklə ali dövlət, məhkəmə hakimiyyəti orqanlarının və bələdiyyələrin işinin təkmilləşdirilməsinə, insan hüquq və azadlıqlarının daha səmərəli təmin edilməsinə yönəlib. Beləliklə, Əsas Qanunumuz daha da təkmilləşdirilərək yeni dövrün tələblərinə uyğunlaşdırılıb.

Konstitusiyada təsbit edilmiş hüquqların işğaldan azad olunmuş ərazilərdə tətbiq edilməsi xüsusi əhəmiyyətə malikdir. Bu həmin ərazilərdə Azərbaycan qanunlarının işləməsi, dövlət qurumlarının fəaliyyətinin təşkil olunması ilə həyata keçirilir. Dövlətin bərpa etdiyi hüquqi çərçivə əhalinin hüquq və azadlıqlarının qorunması, insanların sosial xidmətlərlə təmin olunması və iqtisadi inkişafı üçün hüquqi şərait yaradır.

Bu gün ölkəmiz özünün qürurlu, şanlı günlərini yaşayır. Suverenliyimiz, ərazi bütövlüyümüz tam təmin edilib, işğaldan azad olunmuş ərazilərimizdə indi nəhəng tikinti və quruculuq işləri aparılır, insanlar öz yurdlarına dönürlər. İkinci Qarabağ müharibəsində Azərbaycanın tarixi Qələbəsindən sonra ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin işğaldan azad edilmiş ərazilərə səfərləri zamanı əhali tərəfindən böyük sevgi və izdihamla qarşılanması, ünvanına göndərilən saysız-hesabsız minnətdarlıq məktubları xalqın öz Liderinə, Müzəffər Sərkərdəsinə bəslədiyi ehtiramın təzahürüdür.

Bu gün xalqımız yeni inkişaf tarixinə qədəm qoyub, indi dövlət suverenliyi tamdır, ərazilərimiz bütövdür, sərhədlərimiz isə toxunulmazdır. Dövlətimiz müstəqilliyini möhkəmləndirmək və dünyada mövqeyini daha da gücləndirmək istiqamətində öz fəaliyyətini böyük siyasi iradə ilə davam etdirir. Bunun üçün tələb olunan bütün resurslar mövcuddur: müdrik xarici siyasət, güclü iqtisadiyyat, xalqın dövləti ilə birliyi və qətiyyətli Lider. Prezident cənab İlham Əliyevin dediyi kimi: ***"Lider ədalətli olmalıdır. Liderlik, əlbəttə ki, böyük bir məsuliyyətdir və ən önəmlisi ondan ibarətdir ki, lider həmişə öz xalqına, öz əhalisinə münasibətdə ədalətli olmalıdır. Heç vaxt xalqına yalan danışmamalısan və xalq bunu yüksək qiymətləndirəcək. Bəzən müəyyən siyasi səbəblər üzündən hakimiyyətə can atan liderlər çoxlu vədlər verir və sonra onları yerinə yetirmir və bu da məyusluğa, inamsızlığa gətirib çıxarır. Bu, dünyanın müxtəlif yerlərində siyasi böhrana gətirib çıxarır.***

***İyirmi ildən artıq müddət ərzində həmişə Azərbaycan xalqına həqiqəti söyləmişəm. Bu həqiqətin müsbət və ya mənfi olmasından asılı olmayaraq. Həmişə xalqıma ədaləti bərpa edəcəyik söyləmişəm və xalqım da mənə inanıb. 17 il hakimiyyətdə olandan sonra, nəhayət, vəd etdiklərimizi yerinə yetirdik və suverenliyimizi, ərazi bütövlüyünü və ləyaqətimizi bərpa etdik".***

Bu gün artıq müstəqil, suveren Azərbaycan dövləti inkişafının yeni mərhələsində ərazi bütövlüyünü, suverenliyini qoruyan, tam təmin edən bir ölkəyə çevrilib. Müharibədən sonra işğaldan azad edilmiş torpaqlarda aparılan islahatlar, bərpa, yenidənqurma işləri, həyat və yaşayış üçün ən ümdə məsələ olan yeni infrastrukturun qurulması, həyata keçirilən digər hüquqi islahatlar və dövlət tərəfindən atılan digər bu kimi müsbət addımlar ölkənin getdikcə artan iqtisadi uğurundan xəbər verir.

# "Yaşıl enerji" investisiyaları: Azərbaycanın davamlı inkişaf strategiyası



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu ilin yanvar ayında Çinin CGTN telekanalına verdiyi müsahibədə, ölkəmizin enerji siyasətində strateji baxışları və yenilikçi yanaşmaları bir daha vurğulayırdı. Bu çıxış enerji resurslarının idarə edilməsində təkcə iqtisadi göstəricilərin deyil, həm də ekoloji və siyasi məsuliyyətin əsas prioritet olduğunu nümayiş etdirirdi. Ölkə başçısının bəyanatları, qlobal enerji keçidində Azərbaycanın tutduğu mövqeni və bu sahədəki liderlik iddiasını açıq şəkildə göstərməklə yanaşı, dayanıqlı inkişaf hədəflərinə uyğun irəliləyişi də təsdiqləyir.

**Əli ABBASOV**
***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı***

### *Qlobal enerji keçidi və Azərbaycanın rolu*

Dünya miqyasında iqlim dəyişikliklərinin sürətlənməsi və təbii resursların tükənməsi prosesi, ölkələri ekoloji cəhətdən təmiz enerji mənbələrinə yönəlməyə vadar edir. Bu proses, öz növbəsində, enerji ehtiyatlarına malik ölkələrin üzərinə böyük məsuliyyət qoyur. Onlar əldə etdikləri qazancı təkcə iqtisadi deyil, həm də ekoloji və elmi baxımdan səmərəli, davamlı inkişafa xidmət edən layihələrə yatırmalıdırlar. Azərbaycan da bu qlobal məsuliyyəti dərk edərək neft gəlirlərini, eyni zamanda ekoloji təhlükəsizlik və dayanıqlı inkişaf prinsipinə əsaslanan alternativ enerji layihələrinə yönəldir. Prezident İlham Əliyevin qeyd etdiyi əsas hədəflərdən biri, 2027-ci ilə qədər 2 qiqavat, 2030-cu ilə qədər isə 6 qiqavat gücündə Günəş və külək enerjisi istehsalına nail olmaqdır. Bu hədəflər Azərbaycanın enerji siyasətinin nə qədər irəliləyişçi və gələcəyə yönəlmiş olduğunu göstərir.

Qarşıya qoyulan böyük hədəflər təkcə enerji təhlükəsizliyinin möhkəmləndirilməsi deyil, həm də karbon emissiyalarının azaldılması və ekoloji tarazlığın qorunması məqsədlərinə xidmət edir. Bu, Azərbaycana qlobal enerji bazarında daha fəal iştiraka imkan verməklə yanaşı, milli səviyyədə ekoloji çirklənmənin qarşısını almağa yönələn prioritet addımların əsasını qoyur.

### *İnvestisiya mühiti və beynəlxalq əməkdaşlıq*

Azərbaycanın "yaşıl enerji" sektorunda qazandığı uğurların təməlində xarici və yerli investorlar üçün formalaşdırılan əlverişli siyasi və iqtisadi mühit dayanır. Prezident İlham Əliyev dəfələrlə qeyd edib ki, ölkəmizin enerji sektoruna sərmayə yatırmaq üçün geniş imkanlar mövcuddur. Bu prioritet sahə üzrə layihələrin həyata keçirilməsi, eyni zamanda Azərbaycanın davamlı inkişaf strategiyasında əsas yer tutur. Layihələrdə Çin istehsalı olan günəş panelləri və batareyaların tətbiqi xüsusi əhəmiyyət daşıyır. Çin texnologiyalarının keyfiyyət və rəqabətədavamlı qiymət baxımından üstünlükləri, Azərbaycanın elmi-texniki inkişafa əsaslanan enerji bazarında yeni perspektivlər yaradır. Bu beynəlxalq əməkdaşlıq ölkəmizin strateji mövqeyini möhkəmləndirməklə yanaşı, həm də ekoloji tarazlığa da töhfə verir.

### *Naxçıvan Muxtar Respublikasının rolu*

Azərbaycanın "yaşıl enerji" siyasətində Naxçıvan Muxtar Respublikası xüsusi əhəmiyyət kəsb edir. Muxtar respublikanın coğrafi mövqeyi və iqlim şəraiti, Günəş enerjisi potensialını artırmaq baxımından əlverişli mühit yaradır. Hazırda bölgədə bərpa olunan enerji mənbələri üzrə müxtəlif elmi-texnoloji layihələr həyata keçirilir. Bu layihələr Naxçıvanın enerji təhlükəsizliyini təmin etmək üçün mühüm vasitə olmaqla yanaşı, bütövlükdə, Azərbaycanın alternativ enerji strategiyasına da əhəmiyyətli töhfə verir. Naxçıvanın bu potensialı, onun həm regional, həm də qlobal səviyyədə davamlı inkişaf prosesinə inteqrasiyasını asanlaşdırır. Muxtar respublikada reallaşan "yaşıl enerji" layihələri ölkəmizin ümumi enerji xəritəsində ekoloji baxımdan davamlı və iqtisadi baxımdan səmərəli bir modelin əsasını qoyur.

### *2023-2027-ci illərdə Naxçıvanın sosial-iqtisadi inkişaf proqramı*

Naxçıvan Muxtar Respublikasında həyata keçirilən 2023-2027-ci illər üçün sosial-iqtisadi inkişaf Dövlət Proqramı regionun bütün sahələrində müasir infrastrukturun qurulmasını, enerji səmərəliliyinin artırılmasını və elmi əsaslara söykənən texnoloji yeniliklərin tətbiqini prioritet elan edir. Bu plan muxtar respublikanın dayanıqlı, ekoloji və iqtisadi cəhətdən əlverişli bir mühitə çevrilməsinə xidmət edən çoxşaxəli tədbirləri nəzərdə tutur.

Bərpa olunan enerji mənbələrinə yönəlik təşəbbüslərin reallaşdırılması, ekoloji tarazlığın qorunması və su ehtiyatlarından rasional istifadə kimi mühüm siyasi qərarlar, sosial infrastrukturun müasirləşdirilməsi ilə paralel şəkildə həyata keçirilir. Bu kontekstdə innovativ yanaşmaların sənaye və istehsalat sahələrində tətbiqi informasiya-kommunikasiya texnologiyalarından daha geniş istifadəyə şərait yaradır.

Sözügedən proqram çərçivəsində regionun coğrafi mövqeyindən səmərəli şəkildə istifadə edərək bərpa olunan enerji istehsalını özündə birləşdirən sənaye parklarının, istirahət və turizm məkanlarının formalaşdırılması prioritetlər sırasındadır. Eyni zamanda turizm infrastrukturunun ekoloji standartlara uyğun qurulması, ağıllı texnologiyaların tətbiqi ilə resurslardan səmərəli istifadənin təmin edilməsi kimi strateji addımlar da sənədin mühüm tərkib hissəsidir.

Naxçıvan Muxtar Respublikasında təhsil və kadr hazırlığı regionun dayanıqlı inkişaf konsepsiyasının əsas sütunlarından birini təşkil edir. Enerji sahəsində beynəlxalq standartlara cavab verən mütəxəssislərin hazırlanması üçün universitetlər və peşə məktəbləri müasir təlim modellərinə uyğunlaşdırılır, enerji sahəsində ixtisaslaşmış elmi-tədqiqat mərkəzləri təsis olunur. Bu yanaşma bölgənin elmi, texnoloji və iqtisadi potensialının sürətli artımına təkan verir.

Sosial-iqtisadi inkişaf proqramı, eyni zamanda yerli istehsalın gücləndirilməsində, rəqəmsal iqtisadiyyatın inkişafında və ekoturizmin populyarlaşdırılmasında mühüm rol oynayacaq. Ekoloji tarazlıq və yaşıl infrastruktur məsələləri isə bu sənədin əsas prioritet istiqamətləri kimi diqqət mərkəzində saxlanılır. Bu proqram Naxçıvanın iqtisadiyyatında yeni iş yerləri yaradılmasına, sosial təminatın gücləndirilməsinə və beləliklə, region əhalisinin rifahının yüksəldilməsinə də hesablanıb.

### *Dayanıqlı inkişaf və qlobal liderlik*

Göründüyü kimi, Azərbaycanın enerji siyasəti təkcə iqtisadi şaxələndirməyə və ixrac potensialının artırılmasına deyil, eyni zamanda qlobal iqlim dəyişikliyi ilə mübarizəyə, ekoloji tarazlığın qorunmasına və dayanıqlı inkişaf prinsiplərinə əsaslanır. Bu, dövlətimizə beynəlxalq aləmdə enerji sektorunda strateji mövqeyini möhkəmləndirməyə imkan verir və ölkəmizi ekoloji baxımdan davamlı enerji sistemlərinin formalaşdırılmasında nümunəvi bir model kimi tanıdır.

Prezident İlham Əliyevin vurğuladığı kimi, yaşıl texnologiyalara və innovativ enerji layihələrinə yönəldilən sərmayələr Azərbaycanda yeni bir iqtisadi və ekoloji inqilabın başlanğıcını qoyur. Bu yanaşma ölkəmizin enerji təhlükəsizliyinin artırılması ilə yanaşı, milli resursların səmərəli istifadəsinə və qlobal enerji bazarlarında üstün mövqenin təmin edilməsinə şərait yaradır.

Beləliklə, Azərbaycanın enerji strategiyası iqtisadi inkişafla ekoloji məsuliyyətin vəhdətindən ibarət olan uğurlu bir model kimi dəyərləndirilir. Prezident İlham Əliyevin müəyyən etdiyi hədəflər həm milli, həm də qlobal enerji keçidində ölkəmizi ön sıralara çıxarır. Xarici və yerli investorlar üçün yaradılmış mükəmməl sərmayə mühiti, Çin istehsalı olan günəş panelləri və digər yaşıl texnologiyaların geniş tətbiqi Azərbaycanda dayanıqlı inkişaf üçün mühüm imkanlar yaradır.

Naxçıvan Muxtar Respublikasında qarşıdakı illəri əhatə edən sosial-iqtisadi inkişaf proqramına uyğun şəkildə bərpa olunan enerji istehsalının genişləndirilməsi muxtar respublikanın strateji yüksəlişinə dinamik impuls verəcək. Bu layihələr həm Naxçıvanın, həm də, bütövlükdə, Azərbaycanın enerji təhlükəsizliyini və yaşıl gələcəyini təmin edən əsas faktorlar sırasına daxil olur. Nəticədə, Azərbaycan yalnız regionda deyil, bütün dünyada "yaşıl enerji" inqilabında aparıcı rola malik bir dövlət kimi mövqeyini daha da möhkəmləndirir.

## Naxçıvanda istehsal olunan elektrik enerjisinin 52,8 faizi alternativ və bərpa olunan enerji mənbələrinin payına düşüb



2025-ci ilin mart ayı ərzində Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidmətinin istismar sahəsində olan elektrik stansiyalarında 29 525 626 kilovat-saat elektrik enerjisi istehsal edilib.

- 13 929 379 kilovat-saatı və ya 47,2 faizi istilik elektrik stansiyalarında;
- 9 345 375 kilovat-saatı və ya 31,6 faizi su elektrik stansiyalarında;
- 6 250 872 kilovat-saatı və ya 21,2 faizi günəş və külək-günəş hibrid elektrik stansiyalarında istehsal edilib elektrik şəbəkələrinə ötürülmüşdür.

Ötən ilin müvafiq dövrü ilə müqayisədə ümumi elektrik enerjisi istehsalında istilik elektrik stansiyalarının payı 14,5 faiz azalmış, su elektrik stansiyalarının payı 8,9 faiz, günəş elektrik stansiyalarının payı 5,5 faiz artmışdır.

Alternativ və bərpa olunan enerji mənbələrində 15 596 247 kilovat-saat elektrik enerjisi istehsal edilmişdir ki, bu göstərici ümumi enerjinin 52,8 faizini təşkil edir.

# Balaca Oğuzun Naxçıvan sevgisi

*2 aprel Ümumdünya Autizm Maarifləndirmə Günüdür. Gəlin fərqli düşünən, fərqli hiss edən bu uşaqlar üçün birlikdə daha anlayışlı, sevgi dolu bir dünya yaradaq. Çünki hər bir uşaq sevgi ilə böyüdükdə dünya daha da gözəlləşir. Autizmli uşaqlar dünyaya fərqli baxır, amma onların sevgisi, hissləri və arzuları bizimkindən heç də az deyil. Onları anlamaq üçün böyük sözlərə yox, sadəcə, sevgi və səbrə ehtiyac var. Bəzən bir gülümsəmə, bir isti qucaqlaşma onların dünyasını işıqlandıra bilər. Gəlin bu gün və hər gün onları olduğu kimi qəbul edək, dəstək olaq və birlikdə daha rəngarəng, mehriban bir dünya quraq.*



Autizmli uşaqlara sevgi və qayğı göstərmək, onların cəmiyyətə inteqrasiya etmələrinə dəstək hər birimizin borcudur. Onlara uyğun təhsil mühiti, dostluq yaratmaq və kiçik qələbələrinə belə sevgi ilə yanaşmaq cəmiyyətimizin daha mərhəmətli və anlayışlı olmasının göstəricisidir. Unutmayaq ki, dünyaya böyük töhfələr vermiş bir çox dahilər – riyaziyyatçılar, rəssamlar, musiqiçilər və alimlər arasında autizm spektrinə daxil olan insanlar olub. Bu gün autizmli uşaqların da cəmiyyətə inteqrasiya olunması üçün hər cür dəstək göstərilir. Axı uşaqlar dövlətin gələcəyi, dayağıdır.

“Şərq qapısı” qəzeti olaraq bu dəfə 13 yaşlı Oğuz Seyidovdan söz açacağıq. Oğuz valideynləri ilə birgə Almaniyada yaşasa da, öyrənirik ki, Naxçıvanı çox sevir və tez-tez bura səfər edir. Biz də Oğuz və valideyni Ramilə Məmmədova ilə görüşüb həmsöhbət olduq. Ramilə xanım dedi ki, Oğuz bu sindromla mübarizədə öz əzm və iradəsi ilə bir çox insana örnəkdir: “Burada, təbii ki, cəmiyyətimizin hərtərəfli dəstəyi önəmlidir. Çalışıram ki, Oğuzun sosial həyatını aktiv keçirəm. Oğuz rəsm çəkməyi və yemək hazırlamağı çox sevir. Bu da onun daxili aləmini zənginləşdirir. Oğuz ətrafındakı bütün insanlara qarşı səmimi və mehribandır. Öz doğmalarına isə xüsusi sevgi bəsləyir. O bu yolda ən böyük dəstəyi məndən alır. Almaniyada yaşamağımıza baxmayaraq, Naxçıvana ildə dörd dəfə səfər edirik. Çünki oğlum bu yurda qəlbən bağlıdır. O, Naxçıvan mühitində özünü daha yaxşı hiss edir və buranı çox sevir. Almaniyada doğulub böyüsə də, sərbəst şəkildə öz ana dilimizi başa düşə bilir”.

Söhbətimiz zamanı müsahibimiz bildirdi ki, planlarımız arasında gələcəkdə Naxçıvanda autizm sindromlu insanların yaşaması üçün Oğuzun adını daşıyan ev tikdirməyi düşünürük. Ramilə Məmmədova onu da qeyd etdi ki, daim Oğuzu cəmiyyətə adaptasiya etməyə çalışır: “Artıq onunla birgə bir neçə Avropa ölkəsini gəzmişik. Bu da ona çox yaxşı təsir edir. Çünki bu sindromda olan uşaqlar sevgi, qayğı ilə bəslənməlidir. Ən çox diqqət etdiyim məqamlardan biri isə onun psixologiyası ilə xüsusi məşğul olan psixoloqla işləyərək sağlamlığının qeydinə qalmaqdır. Bu həm müalicəvi, həm də cəmiyyətdə özünü formalaşdırmaq baxımından müsbət təsir göstərəcək”.




Qeyd edək ki, ona ən böyük dəstəyi Naxçıvanda yaradılan “Autizmli Uşaqlara Dəstək” İctimai Birliyi həyata keçirir. Burada uşaqlara böyük sevgi və qayğı ilə yanaşılır, onların təlim-tərbiyəsinin, təhsilinin, sağlamlığının, sosial müdafiəsinin yüksək səviyyədə təşkilinə hərtərəfli şərait yaradılır, hüquqlarının qorunması, asudə vaxtlarının səmərəli təşkili diqqət mərkəzində saxlanılır. Bu sindromun olması belə insanlar üçün əngəl deyil, əksinə, onlar dünyamızın əngəlsizləridir. Onlar fərqlilikləri ilə daha da güclüdürlər.

**Aygün RÜSTƏMOVA**
**Bülbül QULİYEVA**

## Uşaq bağçalarında D vitamini paylanmasına start verilib





*Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi tərəfindən “Konstitusiya və Suverenlik İli” çərçivəsində muxtar respublika ərazisində fəaliyyət göstərən uşaq bağçalarında təlim-tərbiyə alan uşaqlara 5000 ədəd D vitamininin paylanması üçün xeyriyyə aksiyasına başlanılıb. Layihənin əsas məqsədi uşaqların sağlam inkişafına dəstək vermək, onların immun sistemini gücləndirmək və vitamin çatışmazlığının qarşısını almaqdır.*

*Tədbirin açılışı Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin dəstəyi ilə Naxçıvan şəhər 8 saylı uşaq bağçası-körpələr evində baş tutub. Tədbirdə Naxçıvan Muxtar Respublikası Səhiyyə və Təhsil nazirliklərinin əməkdaşları, bağça direktorları, Akademik Zərifə Əliyeva adına Naxçıvan Şəhər Poliklinikasının həkim heyəti və valideynlər iştirak edib. Açılış mərasimi uşaqlar üçün təşkil olunan əyləncəli şou-proqramı ilə davam etdirilib.*

*Layihə çərçivəsində poliklinikanın həkim heyəti muxtar respublika üzrə fəaliyyət göstərən uşaq bağçalarında tibbi müayinələr həyata keçirəcək, valideynlərlə maarifləndirici söhbətlər aparacaq və uşaqlara D vitamini paylanılmasını davam etdirəcək.*

*Bu xeyriyyə aksiyası Naxçıvan Muxtar Respublikasında uşaqların sağlamlığının qorunması və gələcək nəslin rifahının təmin olunması istiqamətində atılan mühüm addımlardan biridir.*

## Naxçıvan Dövlət Universitetinin tələbələri EMSA Buxarest Tvinninq Mübadilə proqramında iştirak ediblər




Martın 22-dən 29-dək Naxçıvan Dövlət Universitetinin EMSA üzvü olan Tibb fakültəsinin Müalicə işi ixtisası üzrə 11 tələbəsi EMSA Buxarest Tvinninq Mübadilə proqramı vasitəsilə Rumıniyanın paytaxtı Buxarest şəhərində olub.

Tələbələr UMFCD – Buxarestin “Carol Davila” Tibb və Əczaçılıq Universitetində, UMFCD Universitetində praktiki anatomiya dərsində iştirak ediblər. Eyni zamanda UMFCD Tədris Xəstəxanasında ortopedik əməliyyatlar və laparoskopiya üzrə simulyasiyaya dair təlim alıblar.

Həmçinin onlar ümumi cərrahi əməliyyatlarda müşahidələr aparıblar. Mübadilə proqramında iştirak edən tələbələr üçün Buxarest şəhərində mədəni, sosial proqramlar və gəzintilər də təşkil olunub.

Qeyd edək ki, mübadilə proqramına uyğun olaraq 6-13 may 2025-ci il tarixlərdə isə Buxarestdən 11 tələbənin Naxçıvan Dövlət Universitetinə gəlməsi gözlənilir.

## Culfadan olan şagirdin ölkə səviyyəsindəki uğuru



Ümumi təhsil müəssisələrinin IX-XI sinif şagirdləri arasında keçirilən V Azərbaycan Astronomiya Olimpiadasının qalibləri elan olunub. Martın 15-də Bakı Dövlət Universitetində və Naxçıvan şəhər 3 nömrəli tam orta məktəbdə keçirilən olimpiadanın final mərhələsində 100-dən artıq şagird iştirak edib. Təşkilat komitəsinin qərarına əsasən onlardan 7-si birinci, 11-i ikinci, 10-u isə üçüncü yerə layiq görülüb. Culfa rayon Saltaq kənd tam orta məktəbinin XI sinif şagirdi Şükür Nağıyev isə olimpiadada üçüncü yerin sahibi olub. Onu da nəzərinizə çatdıraq ki, olimpiadanın final mərhələsinin qalibləri bu il Hindistanda keçiriləcək XVIII Beynəlxalq Astronomiya və Astrofizika Olimpiadasına hazırlıq dərslərinə dəvət olunacaqlar.

Belə bir olimpiadada nailiyyət əldə edən Şükürlə görüşüb təəssüratlarını öyrəndik. Üçüncü ixtisas qrupu üzrə bakalavr imtahanına hazırlaşan məktəbli humanitar fənlərə daha çox maraq göstərsə də, bununla yanaşı, astronomiya, coğrafiya, fizika kimi elmlərə də xüsusi marağı olduğunu qeyd etdi. Öz təşəbbüsü ilə bu sahə üzrə yiyələndiyi bilik və bacarıqları yoxlamaq məqsədilə olimpiadadan qeydiyyatdan keçdiyini deyən həmsöhbətimiz əldə etdiyi bu nailiyyətin onun üçün də sevindirici olduğunu vurğuladı. Azərbaycan üzrə keçirilən bu olimpiadada Naxçıvanı təmsil etməkdən qürur hissi duyduğunu bildirdi. Biz də Şükürü uğuruna görə təbrik edir və yeni nailiyyətlər arzulayırıq.

## Naxçıvanlı məktəblinin videosu viral oldu




“Şərq qapısı” qəzetinin çəkib paylaşdığı video sosial mediada milyonlarla izlənmə qazanıb. Videoda Naxçıvan Dövlət Universitetinin Beynəlxalq Məktəbinin şagirdi Nubar Tağıyeva almaniyalı turisti ingilis dilində məlumatlandıraraq ona Haçadağ haqqında geniş bilgi verir. Bu hadisə bir daha sübut edir ki, qızlarımızın yüksək səviyyədə təhsil alması təqdirəlayiqdir.

Son bir ildə fəaliyyət göstərən Beynəlxalq Məktəb artıq öz uğurları ilə seçilməyə başlayıb. Nubar kimi istedadlı şagirdlərin yetişməsi bu təhsil ocağının uğurlu fəaliyyətindən xəbər verir. Əminik ki, bu balaların səsi gələcəkdə daha ucalardan gələcək!

# Milli musiqimizin dərin təəssübkeşi, qədirşünas alim, pedaqoq

...İllər elə tez ötüşür ki. Yeni il başlayır. Gözünü açıb görürsən ki, artıq il yarı olub. Bir də baxırsan kim isə: "Heç bilmədim may ayı nə zaman yetişdi", – deyir. O biri söhbətə qarışır: "A kişi, may nədir, il artıq sona yetir" cavabını verir.

Bax belə illərin işığında Nazim bir də gördü ki, yaşının üstünə xeyli yaş gəlib, 75 yaşına çatıb. 75 yaş əsrin dörddə üçüdür. Nazim ötən illərə boylandı. Öz-özündən soruşdu: "Papağımı günə yandırmamışam ki?" – "Yox", – dedi. Ötüb keçən illəri vərəqlədi. Haqlı olduğunu gördü.

Nazim Kazımov 4 aprel 1950-ci ildə Naxçıvan şəhərində doğulmuş, şəhərdəki 1 nömrəli məktəbdə təhsil almışdır. Hələ orta məktəbdə oxuyarkən onda musiqiyə dərin maraq yaranmışdı. Ümumtəhsil məktəbi ilə yanaşı, eyni zamanda şəhər musiqi məktəbinin tar sinfində təhsil alırdı.

Nəhayət, orta məktəb illəri arxada qaldı. Azərbaycan musiqi alətlərinin şahı sayılan tara sevgi, vurğunluq onu Bakıya – Asəf Zeynallı adına Azərbaycan Dövlət Musiqi Texnikumuna gətirib çıxardı. O, Xalq çalğı alətləri şöbəsinin tar sinfinə qəbul olundu.

Nazim musiqimizlə bərabər Azərbaycan ədəbiyyatının da vurğunu idi. Musiqi ilə ədəbiyyatı bir-birindən ayrı təsəvvür etmirdi. Həm də ali təhsil almaq arzusunda idi. Odur ki, 1967-ci ildə texnikumda təhsil ala-ala sənədlərini Bakı Dövlət Universitetinə təqdim etdi və universitetin Filologiya fakültəsinə (qiyabi) daxil oldu. "Arzular tükənmir", – deyirlər. Sevdiyi filologiya üzrə ali təhsilə yiyələnən Nazim musiqi sahəsində də ali təhsil almağı arzulayırdı. Bakı Dövlət Universitetinin diplomunu aldıqdan sonra Azərbaycan Dövlət Konservatoriyasında qəbul imtahanlarında iştirak edərək bu təhsil ocağının tələbəsi oldu. Xalq çalğı alətləri şöbəsində Xalq artistləri Səid Rüstəmovdan (tar ixtisası üzrə) və Süleyman Ələsgərovdan (dirijorluq ixtisası üzrə) dərs almağa başladı.

Nazimin ilk əmək fəaliyyəti Əli Bayramlı (hazırda Şirvan) şəhəri ilə bağlıdır. O, 1970-ci ildə Asəf Zeynallı adına Azərbaycan Dövlət Musiqi Texnikumunda təhsilini tamamlayanda təyinatını bu şəhərdəki musiqi məktəbinə verdilər. Nazim Əli Bayramlı musiqi məktəbində 3 il müəllim vəzifəsində çalışdı.

1973-1978-ci illərdə Azərbaycan Dövlət Konservatoriyasında təhsil aldığı dövrdə



həm də Bakının 15 nömrəli musiqi məktəbində Xalq çalğı alətləri şöbəsinin müdiri olaraq əmək fəaliyyətini davam etdirdi.

1978-ci ildə konservatoriyanı bitirdikdən sonra onun təyinatını yenidən Əli Bayramlı (hazırda Şirvan) musiqi məktəbinə verdilər. Nazim Kazımov bu musiqi məktəbində bir daha 4 il işlədi, müəllim, direktor müavini oldu.

Buradakı musiqi məktəbində çalışarkən Ariz Abduləliyev, Fəxrəddin Qafarov, Vaqif Abuzərov, Vüqar Nəzərov və başqa bu kimi musiqiçiləri yetişdirdi. Onlar hazırda musiqi sahəsində ad-san yiyəsidirlər.

Nazim müəllim 4 ildən sonra yenidən Bakıya qayıtdı. Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasında Xalq musiqisi kafedrasında müəllim vəzifəsində çalışmağa başladı. İş elə gətirdi ki, Nazim Kazımov üçüncü dəfə Əli Bayramlı musiqi məktəbinə qayıtmalı oldu. Bu dəfə musiqi məktəbinin direktoru təyin edilmişdi. 8 il bu vəzifədə işlədi. Musiqiçi kadrlarının hazırlanması sahəsində səmərəli fəaliyyət göstərdi. Yenə Bakı şəhərinə gəldi. Bu dəfə respublika Təhsil Nazirliyində işə çağırılmışdı. Burada inspektor, aparıcı mütəxəssis, baş mütəxəssis və idarə rəisinin müavini vəzifələrini tutdu. 9 il fəaliyyət göstərdi.

Nazim Kazımovu bitirdiyi Asəf Zeynallı adına Azərbaycan Dövlət Musiqi Texnikumuna (hazırda Azərbaycan Milli Konservatoriyası nəzdində Musiqi Kollecidir) direktor təyin etdilər. 2001-ci ildən həmin vəzifədə işləyir. Eyni zamanda Azərbaycan Milli Konservatoriyasının Xalq çalğı alətləri kafedrasının professorudur.

Nazim müəllim musiqi təhsilinin müasir problem və inkişaf meyillərinə dərindən yiyələnmiş mütəxəssisdir. Geniş erudisiyaya, musiqi savadına malikdir. Tədris prosesinin, təhsil müəssisəsinin, tələbələrin, tələbə auditoriyasının idarə olunması, müəllim-tələbə münasibətlərinin səmərəli qurulması sahəsində səriştəyə yiyələnmiş şəxs, alimdir. O, yüksək ifaçılıq məharətinə malikdir. Xalq musiqisini, o cümlədən muğamlarımızı çox gözəl bilir.

Onun pedaqoji və elmi fəaliyyəti vəhdət təşkil edir. Azərbaycan muğamlarının tərbiyəvi əhəmiyyəti və təlim-tərbiyə prosesində onlardan istifadə ilə bağlı Nazim müəllimin bir sıra araşdırmaları, əsərləri vardır. 1997-ci ildə professor Vidadi Xəlilovun elmi rəhbərliyi ilə "Ümumtəhsil məktəblərində şagirdlərin musiqi qabiliyyətlərinin inkişafında muğam nümunələrindən istifadə üzrə işin sistemi" mövzusunda dissertasiya yazaraq müdafiə etmiş, pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi almışdır.

Həmin dissertasiya əsasında "Ümumtəhsil məktəblərində muğamların tədrisi məsələləri" monoqrafiyasını çap etdirmişdir. Eyni zamanda "Tar, kamança, qanun ixtisası üzrə pedaqoji təcrübə" proqramı, "Ümumtəhsil məktəblərində muğamların tədrisi və tərbiyəvi əhəmiyyəti", "Tar ilə fortepiano üçün pyeslər" mövzusunda proqram, metodik vəsait və kitabçalar, bir çox elmi məqalə Bakı Musiqi Akademiyasının, Azərbaycan Milli Konservatoriyasının, həm də orta ixtisas musiqi məktəblərinin müəllim və tələbələrinin stolüstü kitabıdır.

Nazim Kazımov milli musiqimizin fəal təbliğatçısıdır, məşhur musiqi xadimlərimizin həyat və fəaliyyətini tədqiq edir, respublikamızın musiqi ictimaiyyətinə, vətəndaşlarımıza çatdırır. Asəf Zeynallı, Səid Rüstəmov, Asəf Zeynallı adına Musiqi Texnikumu (İndiki Musiqi Kolleci) haqqında əsərlər yazaraq nəşr etdirmişdir.

"Tar ilə fortepiano üçün pyeslər" (1999), "Ümumtəhsil məktəblərində muğamların tədrisi məsələləri" (2000), "Səid Rüstəmov", "Asəf Zeynallı", "Musiqi kolleci-110" (2008), "Adil Gəray Məmmədbəyli" monoqrafiyaları, "Pedaqoji təcrübə" kitabı (2007) sevilə-sevilə oxunur.

Bundan başqa, Nazim müəllim təlimi Azərbaycan və rus dillərində aparılan ümumtəhsil məktəblərinin I, V, VII və VIII sinifləri üçün "Musiqi" dərsliklərinin həmmüəlliflərindəndir.

Professor Nazim Kazımovun direktoru olduğu Musiqi Kollecinin tələbələri də öz uğurları ilə respublikaya səs salır. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə təşkil olunan muğam ifaçılığı müsabiqələrində Musiqi Kollecinin tələbələri hər dəfə böyük nailiyyətlər qazanırlar. Müsabiqələrdə kollecin məzunlarından Təyyar Bayramov, Babək Niftəliyev, Güllü Muradova, Abgül Mirzəliyev, Ehtiram Hüseynov, Rəvanə Ərəbova layiqli yerlər tutmuşlar.

Professor Nazim Kazımov Azərbaycan musiqisinə yüksək dəyər verir. Deyir ki, Azərbaycan musiqisi dünya miqyasında bəyənilir. İstər muğamlarımız, istərsə də klassik musiqimiz bizim üçün bir xəzinədir. Musiqiçilərimiz dünya səhnələrində, beynəlxalq müsabiqələrdə iştirak edir və dünyanın bir çox ölkələrində uğur qazanırlar. Bizim musiqini dinləyənlər ondan doya bilmirlər.

Nazim Kazımov qazandığı uğurlarla öyünmür. Sadəcə, çalışır ki, öz əməyi, zəhməti ilə nailiyyətlərinin sayını artırsın. Nazim müəllim sadə, mehriban, xeyirxah, humanist, səmimi, alicənab insandır. Yüksək insani keyfiyyətləri ilə böyük hörmət və nüfuz qazanmışdır. İstər rəhbərlik etdiyi pedaqoji kollektivin üzvləri, istər tələbələr, istərsə də musiqi aləmində sevilir.

Professor Vidadi Xəlilovun "Sadiqlik nümunəsi" adlı kitabı Əməkdar incəsənət xadimi, professor Nazim Kazımovun həyat və yaradıcılığını diqqət mərkəzinə gətirir.

Dövlətimiz musiqinin tədrisi, musiqiçi kadrların yetişdirilməsi, musiqi sahəsindəki şəxsi xidmətlərini nəzərə alaraq onu Əməkdar incəsənət xadimi fəxri adına layiq görmüşdür. O, Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə II dərəcəli "Əmək" ordeni; Elm və Təhsil Nazirliyinin "Qabaqcıl təhsil işçisi" döş nişanı ilə təltif edilmişdir. Bundan başqa, Nazim müəllim "Qızıl qələm" mükafatı laureatıdır.

Professor Nazim Kazımov bu gün vaxtilə dahi Üzeyir Hacıbəylinin direktoru olduğu, zəngin ənənələri ilə seçilən Musiqi Kollecinə bacarıqla rəhbərlik edir. Bu təhsil müəssisəsi təkcə respublikamızda deyil, Yaxın Şərqdə ilk musiqi təhsili məktəbi olmuşdur. Nazim müəllim var gücü ilə çalışır ki, Üzeyir bəyin ənənələrini qorusun, yaşatsın, onun adına layiq rəhbərlik üslubu tətbiq etsin.

Professor Nazim Kazımovun 75 yaşı tamam olur. Bu yubiley günlərində ona nə arzu edərdik? Xoş əhval, sağlam və uzun ömür, yaradıcılıq uğurları, Musiqi Kollecinin uğurlarını, Azərbaycan musiqisinin inkişafını görüb sevinmək arzusu! Əziz Nazim müəllim, 75 yaşın mübarək!



**Akif ABBASOV**
***Azərbaycan Respublikasının Təhsil İnstitutunun elmi katibi, pedaqogika elmləri doktoru, professor, Əməkdar müəllim***

## DÜNYA xəbərləri

### İtaliyadakı Etna vulkanı yenidən fəallaşıb

Avropanın ən hündür və aktiv vulkanı olan Etna yenidən oyanıb.

İtaliyanın Siciliya adasındakı vulkan kül və lava püskürməyə başlayıb. Vulkanın cənub-şərqindəki kraterdən güclü lava axını müşahidə olunub. Hündürlüyü, təxminən, 3330 metr olan Etnanın püskürdüyü kül və toz dumanı vulkanın şərqində böyük əraziyə yayılıb.

İtaliyanın Milli Geofizika və Vulkanologiya İnstitutunun Kataniya bölməsi bölgədə hava nəqliyyatı üçün xüsusi qırmızı kod xəbərdarlığı edib.

Qeyd edək ki, Etna vulkanında ildə bir neçə dəfə fəallıq müşahidə olunur.

### ABŞ gömrük rüsumları Fransa şərab sənayesinə zərbə vurub

Fransız şərab sənayesi çətin anlarını yaşayır.

ABŞ-nin Avropa İttifaqı məhsullarına 20 faiz yeni gömrük rüsumu siyasəti dözülməz hesab olunur.

Mənşə Təyinatlı Şərab İstehsalçıları Konfederasiyasının (CNAOC) prezidenti Jerom Bauer bu tarifi fransız üzüm bağları üçün xalis zərər kimi qiymətləndirib.

"Bu, Fransa üzüm bağı üçün bir milyard avro xalis zərər deməkdir. Fransız üzümçülük iqtisadiyyatı heç də yaxşı vəziyyətdə deyil", – deyə Jerom Bauer vurğulayıb.

### Özbəkistanda Avropa İnvestisiya Bankının regional ofisi açılacaq

Səmərqənddə Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev, Avropa İttifaqı Şurasının prezidenti Antonio Koşta və Avropa Komissiyasının sədri Ursula Fon der Lyayenin iştirakı ilə Avropa İnvestisiya Bankının regional ofisinin təsis edilməsi haqqında saziş imzalanıb.

Daşkənd şəhərində ofisin açılması qarşılıqlı faydalı əməkdaşlığı genişləndirməyə, Özbəkistanda və bütövlükdə, Mərkəzi Asiyada yaşıl iqtisadiyyatın, innovativ sənayenin və müasir infrastrukturun inkişafına cəlb edilən investisiyaların həcmini artırmağa imkan verəcək.

Qeyd edək ki, 1958-ci ildə yaradılmış Avropa İnvestisiya Bankı Aİ-nin aparıcı maliyyə institutudur.

### Koreya Respublikası Konstitusiya Məhkəməsi prezidentin impiçmentini təsdiqləyib

Koreya Respublikasının Konstitusiya Məhkəməsi prezident Yun Suk Yolun impiçmentini təsdiqləyib.

Bu, fəaliyyəti dayandırılmış prezidentin dərhal vəzifədən uzaqlaşdırılması anlamına gəlir. Məhkəmə heyətinin yekdilliklə çıxardığı qərarda göstərilir ki, Yun Suk Yol "hüquqi dövlətin və demokratik idarəetmənin əsas prinsiplərini pozub. O, fövqəladə vəziyyət elan etməklə Konstitusiyanı və qanunları tapdalayıb".

Məhkəmənin qərarına görə, ölkədə 60 gün ərzində növbədənkənar prezident seçkiləri keçirilməlidir.

## Naxçıvan şəhərinə xüsusi yetişdirilmiş Xan çinar ağacları gətirilib



"Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin dəstəyi və Naxçıvan Şəhər İcra Hakimiyyətinin təşkilatçılığı ilə Naxçıvan şəhərinin mərkəzi küçələrində və digər ərazilərində 1000 ədəd Xan çinar və 300 ədəd akasiya ağacının əkilməsinə başlanılıb. Xüsusi şəraitdə yetişdirilmiş beş yaşı olan Xan çinar ağacları Naxçıvan şəhərinə gətirilib. Xan çinar və akasiya ağaclarının Naxçıvan şəhərinin mərkəzi küçələrində və digər ərazilərində əkilməsi həm ekoloji, həm də estetik baxımdan böyük dəyərə və əhəmiyyətə malikdir. Artıq Naxçıvan şəhərində yerləşən Zəfər parkında, Əcəmi Seyrəngahı Mədəniyyət və İstirahət Kompleksində, Heydər Əliyev prospektində, Cəlil Məmmədquluzadə, İstiqlal və Nizami Gəncəvi küçələrində və şəhərin digər ərazilərində 600-dən artıq ağacın əkilməsi həyata keçirilib".

Bu sözləri jurnalistlərə açıqlamasında Naxçıvan Şəhər İcra Hakimiyyəti başçısının müavini Gülxanım Orucova deyib.

İcra Hakimiyyəti başçısının müavini qeyd edib ki, hazırda isə ağacların əkilməsi Naxçıvan şəhərinin əsas küçələrindən olan Əziz Əliyev küçəsində davam etdirilir. Naxçıvan şəhərinin mərkəzi küçələrində və digər ərazilərində 1300 ədəd ağacın əkilməsi nəzərdə tutulur.

"Xan çinar "Qırmızı Kitab"a daxil edilib və dünyanın ən uzunömürlü ağaclarından sayılır. Adətən, bu ağaclar 1000-1500 il ömür sürürlər. Əzəmət və ucalıq rəmzi hesab edilən Xan çinarların hündürlüyü 25-30 metrə, bəzi hallarda isə 50 metrə çatır. Bildiyiniz kimi, Naxçıvan şəhəri ərazisində yaşıllıq zolaqları çox olsa da, əksəriyyəti dekorativ ağaclardır və bunların kölgələri çox az olur, yay günlərində, isti havalarda şəhər sakinlərinin bu ərazidə istirahətinə çətinlik yaradır, bu ağaclar isə gələcəkdə öz ecazkar gözəlliyi ilə həm şəhərimizə gözəllik qatacaq, həm də ekoloji cəhətdən ətrafa fayda verəcəkdir. Akasiya ağacları da həm öz ekoloji əhəmiyyəti, həm də füsunkar gözəlliyi ilə şəhərimizə gözəllik qatacaqdır", – deyə Gülxanım Orucova əlavə edib.

## Naxçıvanda Səhiyyə Nazirliyi tərəfindən ASM-lər üzərindən imtiyazlı dərman paylanışına start verildi



Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən icra edilən "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda qeyd olunan Ailə Sağlamlıq mərkəzlərinin yaradılması və əhalinin tibbi xidmətə əlçatanlığının təmin edilməsi məqsədilə bölgələrdə yaradılan Ailə Sağlamlıq mərkəzlərində (ASM) imtiyazlı dərman vasitələrinin paylanmasına başlanılıb.

Artıq muxtar respublika üzrə 10 000-dən çox vətəndaş yaşadığı əraziyə yaxın ASM-lərə müraciət edərək Dövlət proqramlarına (şəkərli diabet və sair) uyğun olaraq onlara təyin edilmiş dərmanları rahatlıqla əldə edə biləcək. Bu təşəbbüs vətəndaşların dərman təminatına əlçatanlığını artıraraq sosial rifahın yüksəldilməsinə xidmət edir. Prosesin ilk mərhələsi Ordubad rayonu üzrə başlanıb. Dırnıs kənd Ailə Sağlamlıq Mərkəzi, Dəstə kənd Ailə Sağlamlıq Mərkəzi və Vənənd kənd Ailə Sağlamlıq Mərkəzində dərmanların təhvil verilməsi həyata keçirilib. Mərhələli şəkildə davam edəcək bu proses çərçivəsində Naxçıvan Muxtar Respublikası üzrə 32 Ailə Sağlamlıq Mərkəzinin hər birində imtiyazlı dərmanların paylanılması nəzərdə tutulub.

Qeyd edək ki, imtiyazlı dərman vasitələrinin paylanması Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin yaratdığı vahid dərman portalı üzərindən icra edilir. Bu yanaşma prosesin şəffaflığını və effektivliyini təmin edərək dərmanların düzgün bölgüsünə nəzarət imkanı yaradır.

ASM-lər vasitəsilə dərmanların vətəndaşlara çatdırılması səhiyyə xidmətlərinin keyfiyyətinin artırılması və sosial həssas qrupların dəstəklənməsi baxımından mühüm bir addımdır. Bu prosesin daha da təkmilləşdirilməsi üçün aidiyyəti qurumlar tərəfindən davamlı olaraq nəzarət və təhlillər aparılır.

Naxçıvan Muxtar Respublikasında səhiyyə sektorunun inkişafı və əhalinin sağlamlıq imkanlarının genişləndirilməsi istiqamətində həyata keçirilən bu və digər layihələr vətəndaş məmnuniyyətini artırmaqla yanaşı, dövlətin sosial siyasətinin uğurlu icrasını bir daha nümayiş etdirir.

## Yer təkindən istifadə ilə bağlı 19 may 2025-ci il tarixdə saat $11^{00}$-da keçiriləcək hərracın elanı

Hərrac auksion formasında keçiriləcəkdir.

Culfa rayonu "Gülüstan" qum-çınqıl yatağı

| № | Yatağın adı | LOT | Həcmi | Sahəsi | Faydalı qazıntının növü | İstismar müddəti | Yatağın mərkəz koordinatı | Başlanğıc qiyməti (manatla) | Behməbləği (10 faiz) (manatla) | İştirak haqqı (manatla) |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1. | Gülüstan | LOT-1 | 200000 $m^3$ | 10,0 ha | qum-çınqıl | 20 ilədək | X-4318445,0 Y-551971,0 | 20000 | 2000 | 540 |

Hərracın keçiriləcəyi ünvan: Naxçıvan şəhəri, Nəsrəddin Tusi küçəsi 19 ("Naxçıvan Biznes Mərkəzi" MMC)

**Qeyd:** Hərracda iştirak etmək istəyən fiziki və hüquqi şəxslər hərracla bağlı məlumat almaq, iştirak haqqı və 10 faiz miqdarında beh məbləğini ödəmək üçün Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinə müraciət edə bilərlər (Naxçıvan şəhəri, Cəlil Məmmədquluzadə küçəsi 42).

Yer təki sahəsindən faydalı qazıntılar çıxarılması üçün hərrac iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalı və hərracda iştirak etmək üçün aşağıdakı sənədləri müraciət ərizəsinə qoşma olaraq təqdim etməlidirlər:

1. Hərracda iştirak etmək üçün yazılı ərizə-müraciət (əlavə olunur);
2. Hərracda iştirak haqqının ödənilməsi barədə bank sənədinin əsli;
3. Hərracda (müsabiqə və auksion) iştirak etmək üçün ödənilən iştirak haqqı (hərrac xərcləri) hərrac predmetinin ehtiyat həcmlərinə münasibətdə aşağıdakı qaydada (LOT üzrə) müəyyən edilir:

Ehtiyat həcmi 200 000 (iki yüz min) kubmetrədək – 540,00 (beş yüz qırx) manat;

Ehtiyat həcmi 200 000 (iki yüz min) kubmetrdən 500 000 (beş yüz min) kubmetrədək – 810,00 (səkkiz yüz on) manat;

Ehtiyat həcmi 500 000 (beş yüz min) kubmetrdən yuxarı olduqda – 1080,0 (bir min səksən) manat.

4. "Vergi ödəyicisinin vergi borcu barədə" arayış (müvafiq sənəd elektron qaydada alındıqda notarial təsdiqli olması zəruridir);
5. İddiaçının son bir ildə maliyyə vəziyyəti haqqında bank arayışı (hesabdan çıxarış);
6. İddiaçının tam adı, hüquqi statusu: Hüquqi şəxsdirsə – nizamnaməsi, VÖEN-şəhadətnaməsi və dövlət reyestrindən çıxarışı, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri; fiziki şəxsdirsə – şəxsiyyəti təsdiq edən sənəd və VÖEN şəhadətnaməsi (notarial qaydada təsdiqlənmiş);
7. İddiaçının ixtisas göstəricilərinə dair məlumatlar: ən azı 1 dağ-mədən mühəndisi və 1 geoloq ilə bağlanmış əmək müqaviləsinin və onların ixtisasını təsdiq edən sənədin notarial qaydada təsdiq olunmuş surəti;
8. İddiaçının maddi-texniki bazası (faydalı qazıntıların çıxarılması üçün zəruri texniki vasitələri və avadanlıqları) haqqında məlumat.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə tərtib olunmalıdır.

İddiaçılar hərracda iştirak etmək üçün yuxarıda göstərilən sənədləri 8 may 2025-ci il saat $18^{00}$-a qədər Naxçıvan şəhəri, Cəlil Məmmədquluzadə küçəsi 42 ünvanında (Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin inzibati binası) təqdim etməlidirlər.

Hərracda iştirak etmək üçün hüquqi və fiziki şəxslər nazirliyə "Yer təkinin istifadəyə verilməsi üzrə hərracların (auksion və müsabiqələrin) keçirilməsi Qaydalarına" uyğun ərizə (bundan sonra "ərizə") təqdim edir.

Göstərilən vaxtdan gec təqdim olunmuş sənədlər açılmadan geri qaytarılacaqdır.

Hərracda iştirak etmək istəyənlər hər LOT üzrə yatağın ehtiyat həcminə uyğun məbləğdə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Naxçıvan şəhəri, Cəlil Məmmədquluzadə küçəsi 42 (Əlaqələndirici şəxs: Şövqi Əliyev, telefon: (036) 545-34-85, 050-569-84-69 ) ünvanından ala bilərlər.

| |
|---|
| Hesab: AZ21NABZ12360100000000005944 |
| VÖEN: 0200003621 |
| Naxçıvan Muxtar Respublikası Ətraf Mühitin Mühafizəsi və Təbii Ehtiyatlardan İstifadə üzrə Dövlət Fondu |
| Büdcə təsnifat kodu: 142325 |
| Büdcə səviyyəsinin kodu: 2 |

***İştirak haqqı heç bir halda geri qaytarılmır.***

Hərrac komissiyası tərəfindən hərrac iştirakçısına dəvət məktubu verildikdən sonra 2 (iki) iş günü ərzində başlanğıc qiymətinin 10 faiz miqdarında beh məbləği ödənilməlidir.

Beh məbləği ödənilmədiyi təqdirdə iddiaçı hərraca buraxılmır.

## Naxçıvanda mədəni tədbirlər




***Aprel ayında Naxçıvanda bir sıra tamaşa və sərgilərin keçirilməsi planlaşdırılır. Bunlardan biri də Məhəmməd Tağı Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrının balacaları üçün keçirəcəyi tamaşalardır.***

***5 aprel tarixdə saat $12^{00}$-dan $15^{00}$-a qədər "Buratino" tamaşası nümayiş olunacaq. 12 apreldə isə eyni saatlarda "Nəğməkar bülbül" tamaşası teatrsevərlərin ixtiyarına veriləcək. 19 və 26 aprel tarixlərdə isə "Çəkməli pişik" tamaşası təqdim ediləcək.***

***Bundan əlavə, 14 aprel tarixdə saat $15^{00}$-da Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyində Azərbaycanın tanınmış teatr rəssamı, Naxçıvan Rəssamlar Təşkilatının ilk sədri, Əməkdar incəsənət xadimi Məmməd Qasımovun 100 illik yubileyinə həsr olunmuş konfrans-sərgi keçiriləcək.***

***Naxçıvan Dövlət Filarmoniyasında isə muxtar respublika üzrə 10 aprel 2025-ci il tarixdə Şahbuz Rayon Mədəniyyət Sarayında xalq çalğı alətləri orkestrinin Ramiz Mirişlinin yaradıcılığına həsr olunan konsert proqramı, aprelin 15-də kamera orkestrinin Dünya incəsənət gününə həsr olunan konsert proqramı, 28-də isə filarmoniyanın xalq çalğı alətləri orkestrinin akademik Zərifə Əliyevanın doğum gününə həsr olunmuş konsert proqramının keçirilməsi nəzərdə tutulur.***

***Bu tədbirlər Naxçıvanın mədəni həyatına rəng qatacaq və incəsənətsevərlərə unudulmaz anlar bəxş edəcək.***

## Elan

Azərbaycan Respublikasının
Elm və Təhsil Nazirliyi

*Naxçıvan Müəllimlər İnstitutu aşağıdakı kafedralarda boş olan vəzifələri tutmaq üçün müsabiqə elan edir:*

***I.Kafedra müdiri vəzifəsi:***

-Ümumi fənlər kafedrası

-Ali riyaziyyat və informatika kafedrası

***II. Kafedralar üzrə digər vəzifələr:***

Pedaqogika və psixologiya kafedrası üzrə:

-Müəllim – 1 yer (0,5 ştat)

Sənədlər bu elan qəzetdə dərc edildiyi gündən bir ay müddətində qəbul edilir. Müsabiqədə iştirak etmək istəyənlər sənədlərini mövcud təlimati tələblərə uyğun şəkildə rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana şəxsən təqdim edə və ya göndərə bilərlər.

Kafedra müdiri vəzifəsini tutmaq üçün müsabiqədə Azərbaycan Respublikası Təhsil Nazirliyinin Kollegiyasının 2017-ci il 15 noyabr tarixli 5/5 saylı Qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması Qaydaları"nın tələblərinə cavab verən şəxslər iştirak edə bilərlər.

***Ünvan: Naxçıvan şəhəri,***
***Heydər Əliyev prospekti 2,***
***Naxçıvan Müəllimlər İnstitutu,***
***Rektorluq***

## *İtmişdir*

Şərur rayonu, Qarahəsənli kəndində yaşamış Kərimova Səkinə Əkbər qızının adına olan JN-129$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Bayramova Nargilə Qənbər qızının adına verilmiş Kəngərli rayonunun Qarabağlar kəndində JN-309$^{A}$ nömrəli, 10209018 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Nehrəm qəsəbəsində Hacıyev Əhməd Məhəmməd oğlunun adına olan JN-368$^{B}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Nehrəm qəsəbə sakini İbrahimov Əlövsət Müslüm oğlunun adına olan JN-1250$^{B}$ nömrəli, 10300058 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Kəngərli rayonu, Şahtaxtı kənd sakini Seyidov Heydər Sadıq oğlunun adına olan JN-282$^{A}$ nömrəli, 10200028 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Nizami küçəsi, bina 53, mənzil 24-də yaşayan Əliyev Hamlet Həsən oğlunun adına olan evin 6812 nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, 21-ci məhəllə, ev 53-də yaşayan Əliyeva Qızılgül Fərman qızının adına olan evin 11033 nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

ŞƏRQ QAPISI

Baş redaktor: SARA ƏZİMOVA

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *info@serqqapisi.gov.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Vöen: 0200065441*

Çapa imzalanmışdır 00:00

Tiraj: 1000. Sifariş № 103

*Nömrəyə məsul:* Ceyhun Məmmədov, Rafiq Təhməzov, Türkanə Əsədova

*Dizayner:* Tacirə Vəliyeva

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*